www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 dekabr 2016-cı il Şənbə № 269 (6590) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda məktəbin həyətində dava - sərxoş kişi ölümcül döyüldü

yazısı səh.2-də

**Gündəm**

### Deputatların etirazlarına rəğmən hökumət bildiyini etdi



Parlament komitələrində 2017-ci ilin büdcə müzakirələri yekunlaşdı; gələn il idmana daha çox vəsait ayrılacaq

yazısı səh.12-də

### Müdafiə Nazirliyi cəbhədən gələn həyəcanlı xəbərlərə reaksiya verdi

yazısı səh.6-da

### "Xərçəngin müalicəsi tapıldı" iddialarına ekspert rəyi

yazısı səh.13-də

### Ermənistan 2016-cı ilin son görüşündən imtina edir -düşmən savaşı seçir

yazısı səh.11-də

### Direktor teatrı "taxtabiti yuvası" adlandırdı, aləm qarışdı...

yazısı səh.13-də

### Akademik Nizami Süleymanov II Fəxri Xiyabanda dəfn olundu

yazısı səh.10-da

### Qiymətlərin ilin sonunda və ya əvvəlində dəyişməsinin sirri

yazısı səh.3-də

### Neft bahalaşsa böhrandan xilas olarıqmı...

yazısı səh.4-də

### Jirinovskiyə Bakı kommunistlərindən etiraz

yazısı səh.6-da

### ABŞ-da "quduz it"in müdafiə naziri təyinatı nədən xəbər verir...

yazısı səh.6-da

### "Mənsub olduğu klan Cahangir Hacıyevin bəlli xətti keçməsinə razılıq verməz" - politoloqdan açıqlama

yazısı səh.4-də

## Moskva və Ankaranın ortaq qayğısı - müharibə...

# ÇAVUŞOĞLU BAKIYA KREMLİN MESAJI İLƏ GƏLİR? - QARABAĞ ƏTRAFINDA YENİ GƏLİŞMƏ

Az öncə "5 rayon" müjdəsi verən Türkiyənin baş diplomatının rusiyalı həmkarı ilə görüşdən dərhal sonra Bakıya uçmasının mümkün səbəbləri; **rusiyalı politoloq:** "Müharibəni önləmək üçün təcil addımlar atılmalıdır..."



yazısı səh.7-də

## Azərbaycanda terror hazırlayan iranlılar Keniyada ələ keçdilər

İsrailin Bakıdakı obyektlərinə hücum planlaşdırmaqda ittiham olunan şəxslər İranın diplomatik maşınında gedərkən saxlanılıblar; Netanyahunun Bakı səfəri ərəfəsində baş verən həbslərin pərdəarxası...

yazısı səh.2-də



### "Məğlub olsaydım da ...ana müxalifətin ən güclü liderinə məğlub olacaqdım" - Adil Əliyev

yazısı səh. 8 və 9-da



Ruslan Çovdarov

### "Atamın qorxunc obrazını yaradırlar" - Akif Çovdarovun oğlu etiraz edir

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "Mitinq məsələsi hələki gündəmdə deyil, lakin müzakirənin gedişində hər şey ola bilər"

yazısı səh.3-də



## Prezident Zərdabda xəstəxananın açılışını etdi

**Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Zərdab rayonuna səfərə gediblər. APA-nın məlumatına görə, dövlət başçısı və xanımı Heydər Əliyevin Zərdab şəhərinin mərkəzi meydanındakı abidəsi önünə gül dəstəsi qoyublar.**

Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev prezident İlham Əliyevə son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Zərdab Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilən yeni binasında yaradılan şəraitlə tanış olublar.

Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verib ki, xəstəxana əsaslı təmir və yenidənqurmadan sonra 125 çarpayılıq tibb müəssisəsi kimi fəaliyyət göstərəcək.

Hazırda xəstəxanada 530 işçi çalışır. Onlardan 57-si həkim, qalanları isə orta tibb işçiləridir.

Müasir tibbi avadanlıq və ləvazimatlarla təmin olunan Zərdab Rayon Mərkəzi Xəstəxanasında ətraf rayonlardan gələnlərə də tibbi xidmət göstəriləcək.

Zərdab Rayon Mərkəzi Xəstəxanasında yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı və xanımı tibb ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

## Sosial evlər bu ailələrə veriləcək - ilkin şərtlər açıqlandı

**Güzəştlə mənzil əldə etmək hüququna malik olanlar sırasına müəyyən edilmiş kateqoriyalar üzrə gənc ailənin üzvü olan şəxslər də daxildir.**

Ölkə.Az xəbər verir ki, bu barədə məlumat Mənzil İnşaatı Dövlət Agentliyinin ( MİDA) mətbuat xidmətindən verilib.

"Gənclər siyasəti haqqında" qanuna əsasən, gənc ailə dedikdə yaşı 16-dan 35-dək olan gənclərin nikaha daxil olmasından yaranan ailə, habelə himayəsində azı bir uşağı olan və yaşı 35-dən çox olmayan tək valideyn nəzərdə tutulur.

Yəni bu kateqoriyaya daxil olan gənc ailələr güzəştli sosial ev almaq hüququna malik olacaqlar.

## Azərbaycandakı Amerika Ticarət Palatası ölkədə biznesin inkişafına dair tövsiyələr hazırlayıb

**"Bura səfərimin məqsədi Azərbaycanla ABŞ arasında iqtisadi əlaqələri genişləndirmək və dərinləşdirməkdir". APA-nın məlumatına görə, bunu ABŞ Ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lalli deyib.**

O, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı sahəsində müəyyən irəliləyişlər əldə edildiyini, iqtisadi əlaqələrin və biznesin inkişafı sahəsində mühüm potensial olduğunu qeyd edib: "ABŞ-ın və Azərbaycanın özəl sektorunda çalışan şəxslərin fəaliyyəti çox vacibdir və bu, Azərbaycan iqtisadiyyatının diversifikasiyası, qeyri-neft sektorunun inkişafı siyasətinə uyğundur.

Azərbaycandakı Amerika Ticarət Palatası iki ölkə arasında ticarət əlaqələrinin inkişafı üçün vacib olan sənədlə çıxış edib, 16 tövsiyə verib. Bu tövsiyələr Azərbaycanda biznesin inkişafı sahəsinə mühüm təkanlar verə bilər".

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Keniyada ələ keçən iranlılar Azərbaycanda terror hazırlayırmış

**İsrailin Bakıdakı obyektlərinə hücum planlaşdırmaqda ittiham olunan şəxslər İranın diplomatik maşınında gedərkən saxlanılıblar; Netanyahunun Bakı səfəri ərəfəsində baş verən həbslərin pərdəarxası...**

Cümə axşamı, dekabrın 1-də Keniyada İranın iki vətəndaşına qarşı terror aktları törətmək üçün informasiya toplamaq ittihamı irəli sürülüb. Musavat.com-un məlumatına görə, ittiham həmin şəxslərdə İsrail səfirliyinin videoyazısı aşkarlandıqdan sonra rəsmiləşib.

"AssociatedPress"in məlumatına görə, iranlılar Azərbaycanda İsrail obyektlərinə qarşı terror aktları planlaşdırırmışlar. Prokuror Dunkan Ondimin sözlərinə görə, Səid Nasrollah İbrahim və Abdulhüseyn Qoli Safari Nayrobidə çərşənbə axşamı İranın diplomatik maşınında saxlanılıblar. Onlar türmədə terrorizm ittihamı ilə yatan iranlı məhbuslara baş çəkməkdən qayıdırmışlar. Şübhəlilər telefonla çəkilişlər aparırmışlar.

Avtomobili idarə edən keniyalı sürücü də terrorçuluğa himayədə suçlanaraq saxlanılıb.



Bildirilir ki, İran casusları Azərbaycanda, Tailandda və Hindistanda İsrail obyektlərinə qarşı terror təşkilində şübhəli bilinirlər. O da qeyd edilir ki, bu, ilk dəfə deyil ki, Keniyada terrorizmdə şübhəli bilinən İran vətəndaşları saxlanılır və həbə məhkum edilir.

Konkret olaraq Azərbaycana gəlincə, illər öncə Bakıdakı İsrail səfirliyi ilə bağlı da analoji xəbər yayılmışdı. Bəlidir ki, Bakının yəhudi dövləti ilə isti münasibətləri heç vaxt Tehranı qane eləməyib. Xüsusən də İsraillə Azərbaycan arasında son illər hərbi və hərbi-texniki sahədə genişlənən əməkdaşlıq cənub qonşumuzu ciddi narahat etməkdədir.

Dekabrın 13-də isə İsrailin baş naziri Benyamin Netanyahunun Bakıya səfəri gözlənilir.

**Keniyadakı tutuqlama həm də məhz bu ərəfəyə təsadüf eləməsi ilə xüsusi diqqət çəkir.**



## "Biz Rusiya ilə yaxşı qonşuyuq, dostluğumuzu davam etdirəcəyik"

**"Rusiya və Azərbaycan Qafqaz ölkələridir, biz qonşuyuq, yaxşı qonşuyuq və dostluğumuzu da davam etdirəcəyik".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev "Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli" mövzusunda beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri ilə görüşü zamanı deyib.

"Mən sizin - Qafqazın nüfuzlu liderlərinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Bu gün ağsaqqal sözü həmişəkindən daha əhəmiyyətlidir. Sizin fəaliyyətiniz də təhlükəsizliyə, Rusiyanın Qafqaz respublikalarının inkişafına doğru aparır. Həm də Rusiya-Azərbaycan birgə münasibətlərini möhkəmləndirir. Çünki artıq dəfələrlə qeyd etdiyim kimi, Rusiya və Azərbaycan Qafqaz ölkələridir, biz qonşuyuq, yaxşı qonşuyuq və dostluğumuzu da davam etdirəcəyik", - deyə o vurğulayıb.

Dövlət başçısı qeyd edib ki, bu cür görüşlər həm münasibətlərimiz üçün, həm də Rusiya-Azərbaycan münasibətləri, Qafqazda sabitlik, təhlükəsizlik üçün böyük əhəmiyyət daşıyır: "Şimali Qafqaz respublikaları və Azərbaycanı böyük dostluq tarixi, qarşılıqlı hörmət, qarşılıqlı dəstək birləşdirir. Mən şadam ki, bu gün bu əlaqələr Qafqaz respublikaları arasında bütün səviyyələrdə, o cümlədən də dini liderlər arasında davam edir. Bu, Qafqaz müsəlmanlarının birliyini möhkəmləndirir və həmçinin dünya müsəlmanlarına bizim birlikdə olmağımızın vacibliyi üçün bir nümunədir".

## Mövsüm Səmədov cərimə kamerasına salınıb

**Azərbaycan İslam Partiyasının (AİP) sədri Mövsüm Səmədov noyabrın 29-da saxlandığı Qobustan Qapalı Həbsxanasından 12 saylı cəzaçəkmə müəssisəsinə qaytarıldıqdan sonra cərimə kamerasına (karser) salınıb.**

Bu barədə vəkil Yalçın İmanov bildirib.

Vəkil hazırda Mövsüm Səmədovla görüşə bilmədiyini deyib.

"Bu Penitensiar Xidmət tərəfindən verilən görüş icazəsinin yalnız Qobustan Qapalı Həbsxanasına aid olması ilə bağlıdır.

İmanov Cəzaçəkmə Müəssisəsində görüş üçün bu gün Penitensiar Xidmətə rəsmi müraciət edəcəyini bildirib.

M.Səmədov 2011-ci ilin yanvarından həbsdədir. O, hakimiyyəti zorla ələ keçirmə cəhdində və başqa ağır cinayətlərdə ittiham olunaraq 12 il azadlıqdan məhrum edilib.

2014-cü il oktyabrın 9-da Qaradağ Rayon Məhkəməsinin qətrarı iləSəmədov 12 saylı Cəzaçəkmə Müəssisəsindən 2 il müddətinə ciddi rejimli Qobustan həbsxanasına köçürülüb.

İmanovun sözlərinə görə, M.Səmədovun Qobustan həbsxanasında qalmasının müddəti noyabrın 28-də bitib. Növbəti gün onu əvvəllər cəza çəkdiyi 12 saylı koloniyaya qaytarıblar. Koloniyaya gəldikdən sonra M.Səmədovu 15 sutkalığa karserə salıblar.

Vəkil M.Səmədovun koloniyaya qayıtdıqdan sonra dərhal karserə salınmasını qanunazidd adlandırıb.

**Penitensiar Xidmət vəkilin dediklərinə hələ münasibət bildirməyib ("Amerikanın səsi").**

## Bakıda məktəbin həyətində dava - sərxoş kişi ölümcül döyüldü

**"Report"un xəbərinə görə, Xətai rayonu Əhmədli qəsəbəsində yerləşən 254 nömrəli orta məktəbin həyətində 43 yaşlı Beydullayev Əfqan Vahid oğlu naməlum şəxslə mübahisə edib. Mübahisə zəminində Ə.Beydullayev ölümcül döyülərək ağır xəsarət alıb. O, xəstəxanaya çatdırılıb.**

Faktla bağlı Xətai Rayon Polis İdarəsində araşdırmalara başlanılıb. Ə.Beydullayevin dindirilməsi zamanı onun sərxoş olduğu müəyyənləşdirilib.

## Bakıda növbəti "Formula 1" yarışları keçiriləcək - tarix bəlli oldu

**Bakıda ikinci dəfə keçiriləcək "Formula-1" yarışlarının başlama tarixi bəlli olub. Musavat.com xəbər verir ki, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) yarışlarla bağlı mətbuat konfransı təşkil edib.**

Konfransda verilən məlumata görə, 2017 Formula 1 Azərbaycan Qran Prisinin biletləri dekabrın 2-də www.bakucitycircuit.com saytında onlayn qaydada satışa çıxarılacaq.

Şirkətin mətbuat xidmətinin rəhbəri Nigar Arpadarai ilk olaraq bilet satışı ilə bağlı məlumat verib: "Biletləri 17 müxtəlif məntəqədən, o cümlədən Park Bulvar və Gənclik alış-veriş mərkəzlərində, ASAN xidmətin Bakı və Sumqayıt şöbələrində və paytaxtın bir sıra teatr və mədəniyyət mərkəzlərində yerləşən bilet satışı məntəqələrindən əldə etmək mümkün olacaq.

Əməliyyat şirkəti biletləri erkən alanlar üçün məhdud sayda 30%-dək endirimli 4 günlük biletlər təklif edir. Bu kampaniya 31 yanvar 2017-ci il tarixinədək davam edəcək. Kampaniya bitdikdən sonra biletlərin satışı əvvəlki endirimsiz qiymətlərlə aparılacaq".

**Konfransda verilən məlumata görə, yarışların tarixi dəyişib:** "FİA-nın elan etdiyi 2017 Formula 1 Dünya Çempionatının təqviminə görə, Bakı şəhərinin mərkəzi küçələrində baş tutacaq sayca 2-ci Formula 1 yarışı 23-25 iyun tarixlərində baş tutacaq. Nəzərdə tutulan tarixin bir həftə sonraya keçirilməsində əsas məqsəd ötən Qran Prinin 24 saat davam edən Le Man yarışı ilə üst-üstə düşməsinin qarşısını almaqdır".

**Nigar Arpadarai çıxışı zamanı qeyd edib ki, Bakıda keçiriləcək Formula 1 yarışının rəsmi adı dəyişdiriləcək təqvimdə Formula 1 Azərbaycan Qran Prisi təyin edilib.**

❑ Musavat.com

## Dolların rəsmi məzənnəsi 1.75-ə yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) dekabrın 5-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi bu günlə müqayisədə dəyişməyərək 1,7339 səviyyəsində müəyyən olunub.

YENİ MÜSAVAT
N 269 (6590) 3 noyabr 2016

# Bu gün müxalifət toplaşır

## Pənah Hüseyn: "Mitinq məsələsi hələ ki gündəmdə deyil, lakin müzakirənin gedişində hər şey ola bilər"

**Azərbaycanda qaz və işığın qiymətinin artması ilə bağlı ölkə müxalifəti bu gün sükutu pozacaq. Saat 12:00-da ADP qərargahında əsasən antiböhran koalisiyasına daxil olan partiyaların tədbiri keçiriləcək. Tədbirdə qiymətlərin artması və buna etiraz olaraq mitinq təyin etmək kimi məsələlər müzakirə olunacaq.**



Bu barədə "Yeni Müsavat"a açıqlamasında tədbirin təşkilatçılarından olan **Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn** məlumat verib: "Siyasi vəziyyətlə, xüsusən qiymət artımı ilə bağlı tədbir keçirilməsi ilə bağlı təşəbbüs qaldırılıb. Həm siyasi partiyalar, həm də ictimai siyasi qüvvələr tərəfindən belə tədbir keçirilməsi nəzərdə tutulub. Bu, bir növ partiyaların tədbiri kimi nəzərdə tutulmayıb. Burada hər kəs iştirak edə, ümumi vəziyyətlə bağlı fikirlərini deyə bilər. Müzakirələrin gedişində hər hansı qərar, yaxud sənəd qəbul olunsa, o da tədbir iştirakçılarının ümumu qərarı ilə qəbul olunacaq. Qiymət artımı son günlərdə geniş narazılığa səbəb olub. Əhalinin sosial vəziyyətinin pisləşməsi ilə bağlı qiymət artımı son damlalardan biridir. İqtidar bu qərarla onu göstərdi ki, böhrandan çıxış yolu üçün yükü xalqın belinə qoyur. Əhali qiymət artımının hakimiyyətyönlü mətbuat və televiziyalarda xalqın rifahına uyğun olması, eləcə də yaşayış durumunu düzəlmək istəyi kimi təqdim edilməsindən də çox qəzəblidir. Prinsip etibarı ilə belə müzakirənin keçirilməsi məqsədəuyğun sayılıb. Bu sərbəst bir toplantıdır. Əsasən vətəndaşların özlərinin toplantısı kimi nəzərdə tutulub. Təbii ki, burada siyasi partiyalar çoxluq təşkil edəcək. Dekabrın 1-də ADP qərargahında qeydiyyatdan keçmiş 12 siyasi partiya rəhbərinin toplantısı oldu. Burada qərara alındı ki, tədbir təşkil olunsun, hər kəs mövqeyini ifadə etsin. Bu antiböhran koalisiyasının tədbiri deyil. İctimaiyyətin tədbiri kimi nəzərdə tutulub".

**P.Hüseyn siyasi qurumlara dəvətlərin göndərilmədiyini qeyd etdi:** "Tədbir konkret hansısa bir siyasi qurum tərəfindən təşkil olunmadığı üçün sosial şəbəkələrdə tədbir barədə xəbər verilib. Bu baxımdan xüsusi dəvətlər yoxdur. Amma hər bir şəxs öz təşəbbüsü ilə istənilən adamı dəvət edə bilər. Hesab etmirəm ki, qiymət artımı ilə bağlı müxalifət susqundur. Müxtəlif formalarda ayrı-ayrı partiyalar, şəxslər öz mövqelərini bildiriblər. Qiymət artımı qərarının ertəsi gün 6 partiya, o cümlədən, bizim partiya qərarı sərt şəkildə pisləmişdi. Xalqı, ictimaiyyət nümayəndələrini səfər olmağa çağırdıq. Hakimiyyətin günahkar olduğu böhranı xalqdan çıxarmaq üçün bu qərarın verildiyini qeyd etdik. Bu siyasət ölkənin varlığını təhlükə altına atır. Kütləvi aksiyalar formasında etirazlar siyasi partiyalar tərəfindən ehtiyatla qarşılanır. Amma situasiya belə davam edəcəksə, qarşıdakı aylarda kütləvi aksiyaların başlanacağı istisna olunmur. Buna görə də iqtidar düşünməli, yaxud da problemi həll edə bilmədiyini etiraf edib, siyasi səhnədən çəkilməlidir. Tədbirimizdə iştirakçılar tərəfindən mitinq qərarı müzakirəyə çıxarılsa, o zaman müzakirələrin sonunda təşəbbüs qrupu yaradılıb, mitinq üçün müraciət oluna bilər. Amma indiki halda hələ ki bu qərar gündəmdə deyil. Lakin müzakirənin gedişində hər şey ola bilər".

❑ **Cavanşir ABBASLI**

# Qiymətlərin ilin sonunda və ya əvvəlində dəyişməsinin sirri

## Natiq Cəfərli: "Dünyanın əksər normal ölkələrində tariflər ümumiyyətlə, dövlət tərəfindən tənzimlənmir"

**İstər kommunal xidmətlər, istərsə də ərzaq mallarının bahalaşması ya ilin sonunda, ya da yeni ilin əvvəlində baş verir. Bu dəfə də bu ənənəsinə sadiq qalan Azərbaycan hökuməti ilin sonunda qazın və işığın qiymətini artırdı. O cümlədən siqaretin və digər məhsulların qiymətində artım baş verdi.**



Qeyd edək ki, bir sıra dövlətlərdən fərqli olaraq Azərbaycanda inhisarlarda tənzimləmə dövlət tərəfindən aparılır və qiymətləri dövlət diktə edə bilir. Bu da Azərbaycanda keçmiş postsovetdən qalma bir sistemdir. Dünyanın bir sıra ölkələrində elektrik, qaz və su ilə bağlı tariflər dövlət tərəfindən tənzimlənmir. Həmin ölkələrdə bu işlə məşğul olan kifayət qədər şirkətlər var ki qiymətləri də onlar tənzimləyir.

*Maraqlıdır, niyə qiymətlər həmişə ilin sonunda və ya yeni ilin əvvəlində dəyişir? Bunun bir iqtisadi izahı varmı?*

**İqtisadçı ekspert Natiq Cəfərli** bunun məntiqi bir əsası olduğunu bildirdi: "Yanvarın 1-dən yeni maliyyə ili başlayacaq. Müxtəlif hesablamaların aparılması, büdcə gəlirlərini və xərclərini yerinə yetirmək üçün dövlət tərəfindən tənzimlənən tariflərin ilin sonu və yaxud da növbəti ilin əvvəlində qaldırılmasının bir məntiqi var. Ərzaq məhsullarında məsələ bir qədər fərqlidir. Ərzaqda dövlət tənzimlənməsi yoxdur. Amma ciddi mövsümi bir amil var. Təqribən dekabra qədər yerli məhsulları bazarda üstünlük təşkil etməsini görürük. Amma dekabrdan sonra həmişə xammalları getdikcə daha çox artır. Təqribən aprelin sonuna, mayın əvvəllərinə qədər. Yəni bu, yeni məhsullar çıxana qədər davam edir. Mövsümi amillər də ərzaq məhsullarının qiymətinin yüksəlməsinə təsir göstərir. Amma tənzimlənən qiymətlərdə bunun məntiqi izahı maliyyə ili üçün hesablamaların aparılması ilə bağlıdır".

**İqtisadçı ekspert bir çox dünya ölkələrində isə bu qaydaların tətbiq edilmədiyini dedi:** "Dünyanın əksər normal ölkələrində tariflər ümumiyyətlə, dövlət tərəfindən tənzimlənmir. Yəni bir çox ölkələrdə hətta elektrik, qaz və su ilə məşğul olan kifayət qədər çoxlu sayda şirkətlər var. Məsələn, London şəhərini 12 şirkət elektrik enerjisi ilə təmin edir. Vətəndaşın da seçim imkanı olur ki, hansı şirkəti seçsin. Yəni orada dövlətin bu işlərə qarışması mümkünsüzdür. Bu, Amerikada da, Avropanın bir çox dövlətində də belədir. Ancaq postsovet ölkələrində və ərəb ölkələrində təbii inhisarlarda tənzimləmə dövlət tərəfindən aparılır. Dünya ölkələrinin böyük əksəriyyətində bu iş biznesin çiynindədir və dövlət-biznes münasibətlərinin nəticəsində qiymət formalaşır. Yəni dövlətin müdaxiləsi ancaq vergilərin artırılması və azalması yolu ilə baş verir ki, biznesdə bunu öncədən bilir. Amma Azərbaycanda təəssüf ki, keçmiş post sovetdən qalan bir sistemdir və hələ də dövlətin əlində olduğu üçün dövlət istədiyi qiyməti diktə edə bilir. Hətta postsovet ölkələrinin bir çoxunda təbii inhisarların biznes arasında idarə etməyə verilməsinin şahidi olmuşuq. Baltikyanı ölkələrdə bu çoxdan baş verib. İndi də Gürcüstan və Ukraynada bu proses gedir".

❑ **Günel MANAFLI**

# "Land of fire"də oda atılan milyonlar



**Xalid KAZIMLI**

**İki-üç il öncə dövlət mərtəbəsində israfçılıq və qənaət haqqında bir yazı yazmışdım, necə başlıq qoymuşamsa, bu gün onu nə saytımızın arxivindən, nə də Google-dən heç cür tapa bilmədim.**

Yoxsa öz özündən sitat gətirənlər kimi həmin yazıdan bolluca sitatlar gətirəcəkdim, öz işim də yüngül olacaqdı, oxucular da görəcəkdilər ki, bu gün üzləşdiyimiz problemlərin mayası o günlərdə tutulub.

Söhbət son illərdə - 2009-cu ildən 2014-cü ilə qədər olan dövrdə ölkəmizdə keçirilən saysız-hesabsız çempionatlar, birinciliklər, forumlar, simpoziumlar, beynəlxalq konfranslar, qurultaylar və sair yarışmalara çəkilən yüz milyonlarla dollar həcmində maliyyə vəsaitindən gedirdi.

Əlinin altında o cür statistik məlumatlar olmayan adam bilməz, olanlar isə heyrətə gələ bilər ki, deyilən vaxtdan bu günə qədər elə bir həftə olmayıb ki, bu ölkədə nəsə bir beynəlxalq tədbir keçirilməsin.

Beynəlxalq tədbirlərlə qeyri-beynəlxalq tədbirlərin əsas fərqi odur ki, birincidə dünyanın müxtəlif ölkələrindən Bakıya uçan təyyarələr N sayda iştirakçı gətirir və onlar paytaxtdakı 5 ulduzlu otellərdə müsafir edilir.

Bütün bu qonaqların daşınmasına, yerləşdirilməsinə, qidalanmasına çəkilən xərclər isə bir qayda olaraq həmişə dövlət büdcəsindən, yaxud da xalqın cibi hesabına yaşayan təşkilatların hesabından ödənilib.

Nəxunək əcnəbi qonaqlarsız günümüz olmadığını, bəzən onların sayının 500, 800, hətta 1000-dən çox olmasını nəzərə alanda nə qədər pul-paranın xəzəl kimi havaya sovrulduğunu, yanan ocağa atıldığını bilmək olar.

Bu xüsusda "Eurovision" və I Avropa Oyunları kimi meqalayihələrin həyata keçirilməsinə xərclənən milyardları da qeyd etmək lazımdır.

2012-ci ildə Bakıda keçirilən "Eurovision-2012" musiqi yarışmasının təşkilinə çəkilən xərclə bir il sonra İsveçdə keçirilən "Eurovision-2013" yarışmasının təşkilinə çəkilən xərc arasında 15 dəfədən artıq fərq vardı.

Bizimki təxminən 1 milyard 240 milyon dollara başa gəlmişdisə, İsveçdə bu rəqəm 50 milyona çatmırdı. Bakı "Eurovision"u bu yarışma tarixinin ən bahalı tədbiri sayılır və yəqin ki, yaxın illərdə (bəlkə də heç vaxt) bizim rekordumuzu qıran olmayacaq.

Əlbəttə, bunu Azərbaycanın dünya miqyasında, Avropada tanıdılması işinin tərkib hissəsi kimi qələmə verib vacib olduğunu göstərmək mümkündür və tam yəqinliklə demək olar ki, bu qədər iri məbləğli vəsaitlər xərclənərkən başlıca düşüncə bundan ibarət olub.

Söz yox, Azərbaycan əcnəbi casuslardan paranoikcəsinə qorxan, ya da vassalı olduğu supergüclərin hesabına dolanan bəzi dövlətlər kimi özünə qapanmalı deyildi və dünyaya açılmalıydı. Ancaq bunu ölçülü-biçili etmək, əndazəni aşmamaq lazım idi, israfçılıq etməyə lüzum yox idi.

Məsələn, İspaniya liqasında oynayan "Atletiko" (Madrid) komandasının oyunçularının formalarının sinəsində (sonradan isə kürəyinin aşağı yerində) "Land of fire - Azerbaijan" yazısı həkk etdirməyə, bundan ötrü o kluba hər ay milyonlarla dollar vəsait ödəməyə nə ehtiyac vardı?

Bu, Qətər, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı kimi ərəb ölkələrinin özünütanıtma fəndidir və təəssüf ki, biz də o yolla gedirdik. Sanki Avropa xalqları futbolçuların formasında ölkəmizin adını zikr edincə, elliklə tökülüşüb ölkəmizə turist səfərinə gələcək, Qarabağ münaqişəsində bizim haqlı olduğumuzu öyrənib, gedəcəkdilər.

Bunlar olmadı, nə avropalılar bahalı Bakıya səyahətə gəldilər, nə də gələnlər bizim üçün həyati səciyyə daşıyan münaqişədə bizi haqlı saydılar. Əvəzində milyardlarla dollar həcmində maliyyə vəsaiti göydələn damından küləyin ixtiyarına buraxılmış əskinaslar kimi sovruldu, getdi.

Hazırda bizim dövlət və millət olaraq o pullara böyük ehtiyacımız var. Artıq deputatlar da həyəcan təbili çalır, başqa dövlətlərə cüzi faizlə verdiyimiz, hətta tam şəkildə qaytarılacağına əmin olmadığımız pulları geri istəyirlər. Ən qəribəsi odur ki, biz başqa dövlətlərə cüzi faizlə borc verdiyimiz halda, özümüz beynəlxalq maliyyə fondlarından, dövlət və banklardan yüksək faizlə borc alırıq.

**Heç olmasa indən belə dövlət büdcəsinə ağır gələn, üstümüzə baha oturan idman yarışlarından, beynəlxalq tədbirlərdən imtina etmək lazımdır. Buna görə heç də xəncərimizin qaşı düşməyəcək, amma əvəzində israfçılıq etməməklə, hər qəpiyin qədrini bilməklə, talançılığın qarşısını almaqla ölkə əhalisinin güzəranını yaxşılaşdırmaq olar.**

**Həbsdə olan Beynəlxalq Bankın İdarə Heyətinin keçmiş rəhbəri Cahangir Hacıyevin son müraciətində özünün günahsız olduğunu sübut etməyə çalışıb, maliyyə sektorunda baş verənlərlə bağlı ifşaedici faktlar açıqlayıb. Bu da onun müxalifətə keçməsi ilə bağlı iddialara səbəb olub. 15 il həbs cəzası alan C.Hacıyevin indi müdafiəsinə böyük ehtiyac duyulur. Bunu misal olaraq sabiq səhiyyə naziri Əli İnsanovu göstərmək olar. Ə.İnsanov da zamanında məhkəmələrində sərt çıxışlar etmiş, hakimiyyətin iri ranqlı məmurlarını açıq şəkildə hədəfə almış və barəsində hökm qərarı çıxarılandan sonra müxalifətə yaxınlaşmışdı. Müxalifət də qapılarını taybatay onun üzünə açmışdı.**

# Cahangir Hacıyev müxalifətə keçərsə...

**Tural Abbaslı:** "Müxalifət Fərhad Əliyevi müdafiə etdi, amma o nə etdi?"
**Əli Əliyev:** "Bu statusu yalnız hələlik Əli İnsanov haqq edir"
**Qabil Hüseynli:** "Mənsub olduğu klan Cahangir Hacıyevin o xətdən keçməsinə razılıq verməz"

Bəs, sabiq bankir də bu cür mövqe sərgilərsə, müxalifətin reaksiyası necə olar?

**AĞ Partiya başqanı Tural Abbaslı** bildirdi ki, hakimiyyətdən vurulan, cinayətlər törədən sabiq məmurların müxalifətə yaxınlaşmaları ilk hal deyil: "Hələ Heydər Əliyev dönəmində həbs edilən iri ranqlı məmurlar həbsxanadan müraciətlər edir, vəzifədə olduqları müddətdə xalqa xidmət etdiklərini deyirdilər. Müxalifətdən üzrxahlıq edib, onlarla əlaqələr qurmağa çalışırdılar. Təbii ki, bunlar səmimi münasibət deyil. Xoş günlərində hakimiyyətin yanında olurlar, milyonlar qazanırlar, xalqı çapıb-talayırlar, sonra da bu cür addımlar atırlar. Müxalifət də onlara qucaq açır. Haqqı pozulan hər kəsin yanında olmağın mən də tərəfdarıyam. Amma bunları əzabkeş kimi cəmiyyətə təqdim etmək, ömürlərini əqidələrinə, tutduqları yola qurban verən, ailələrini çətinliklə yaşadan insanların qarşısında belə şəxsləri şişirtmək ədalətsizlikdir. Bəzən bunlar müxalifətin özünün zəifləməsinə gətirib çıxarır. İnsanlar düşünür ki, zamanında hakimiyyətdə olub milyonlar qazansam, bu gün həbs edilsəm, müxalifət məni onsuzda müdafiə edərdi. Təəssüf ki, bu günün özündə də müxalifət daxilində belə şəxslər var və hətta onlar özlərini müxalifət lideri kimi təqdim edirlər. Mühacirətdə də özlərini müxalifət lideri kimi təqdim edən keçmiş məmurlar var. Hakimiyyətdən vurulan istənilən şəxsin qəlbinin küncündə "bəlkə də qaytardılar" sevdası var. Ona görə də onlar heç zaman səmimi şəkildə müxalifətlə bir arada olmurlar. Zamanında Fərhad Əliyev həbs ediləndə onun hüquqlarını qoruyan komitəyə Cəmil Həsənli rəhbərlik edirdi və komitədə çoxsaylı müxalifətçilər var idi. Komitə sona qədər Fərhad Əliyevi müdafiə etdi, amma o nə etdi? Həbsxanada hakimiyyətlə anlaşdı və azadlığa çıxdıqdan sonra ölkəni tərk etdi. Ona görə də hər gələnə qucaq açmaq olmaz".

**VİP sədri Əli Əliyev** sabiq bankirlə bağlı bunları dedi: "Cahangir Hacıyevin son müraciəti sensasion sayıla biləcək mətndir. Təəssüf ki, Azərbaycan məmurlarının bir qismi həbsə düşdükdən, çıxılmaza dirəndikdən sonra həqiqəti- onu da tam deyil- söyləməyə başlayırlar. Fikrimcə, onların heç birindən qəhrəman düzəltmək lazım deyil. Həmin şəxslər ölkəni çökdürən, milləti əzən sistemin bir elementi olublar. Onlar səhv etdiklərini milli məhəbbət və ya şüurdan etiraf etmirlər. Sadəcə olaraq, ya hökumətə məğlub olduqlarından, ya da ki, sistemin içindən yalnız özlərinin, xüsusi olaraq azlığın cəzalandırılmasına etiraz edirlər. Düzdür, keçmiş nazir Əli İnsanovun direnişi məhz siyasi baxımdan xüsusi vurğulanmalıdır. Hamı anlayır ki, onun həbsdə qalması siyasi motivlə bağlıdır. Yerdə qalan məmurların siyasi müxalifətlə müqayisə edilməsi, ən azı ədalətsizlikdir. Müxalifət liderləri, sıravi müxalifətçilər artıq 30 ilə yaxındır ki, sərasər mübarizənin kraterində istibdada qarşı çabadadır. Necə ola bilər ki, bu sistemin aparıcı elementləri həmin fədakar insanlara bərabər tutulsun? Sadəcə olaraq, bu yolda tövbəkar məmurların mövqeyinə ədalətli yanaşmaq lazımdır. Onların səmimi etirafı qəbul edilməli, növbəti siyasi mübarizə mərhələsində imkanları və bacarıqlarından istifadə edilməlidir. Onların mövcud hakimiyyətə qarşı mübarizəsi yanlışlarına ictimai amnistiya mahiyyəti daşımalıdır. Bu statusu yalnız hələlik Əli İnsanov haqq edir. Onu da etiraf etməliyik ki, hakimiyyətə qarşı mübarizədə ən ciddi güc də hakimiyyətin içindədir. Bunu iqtidar da bilir. Ona görə də ictimailəşmiş total oğurluqlara göz yumulur ki, müxalifətə keçən məmurların sayı artmasın. Lakin gec-tez bu baş verəcək. Bunun aşkar əlamətləri ortadadır. Hakimiyyətin xarizması zədələnib. Pula alışmış hakimiyyət bağları, pulun yoxluğu, onun törədə biləcəyi siyasi, sosial narahatlıqlar fonunda özünüqoruma instinktini gücləndirir. Müxalifət açıq şəkildə iqtidar məmurlarına müraciət etməli, növbəti dönəmin şərtlərini açıqlamalıdır".



**Politoloq Qabil Hüseynli** isə hesab edir ki, Cahangir Hacıyev elə bir klana yaxındır ki, onun müxalifətə yaxınlaşmasını bu zümrə məhv edir: "Mənsub olduğu klan bəlli qırmızı xətlər var ki, Cahangir Hacıyevin o xətdən keçməsinə razılıq verməz. Bütün bunları nəzərə alaraq, düşünmürəm ki, o cəzasını çəkəndən sonra müxalifətin tutduğu yolu getsin. Əvvəla, o, dövlətdən yediyi pulları tam qaytarmayıb. Azərbaycanda maliyyə böhranının yaranmasında əsas günahkar olan şəxslərdən biridir. O, kifayət qədər xalq qarşısında məsuliyyət daşıyır. Belə bir şəxsin bundan sonra xalqımıza xidmət edəcəyi qənaətində deyiləm".

❑ **Cavanşir ABBASLI**

# Neft bahalaşsa xilas olarıqmı...

## Ekspertlər ölkənin böhrandan çıxması üçün neftin vacib olan qiymətini açıqlayırlar, ancaq...

**OPEK-ə üzv olan ölkələr hasilat həcminin məhdudlaşdırılmasına dair qərar qəbul etdikdən sonra neft bahalaşır. Neftin 1 barelinin qiyməti 2015-ci ilin oktyabrın 9-dan bu vaxtadək dekabrın 1-də ilk dəfə olaraq 54 dolları keçib. Ancaq bir gün sonra Brent nefti 16 aylıq maksimumu yenilədikdən sonra cüzi ucuzlaşıb. Ekspertlər bazarın bir neçə günə stabilləşəcəyi qənaətindədirlər. Həmçinin bildirilir ki, neft yaxın illərdə Azərbaycanı böhrandan çıxaracaq səviyyəyə qədər arta bilməyəcək.**



Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, OPEK-in qərarı əslində bazara sözlü müdaxilədir: "OPEK toplantısının bazarlara bir neçə gün təsirləri olacaq. Düşünürəm ki, bir neçə gündən sonra artıq bazar fundamental məsələlərə diqqət yetirəcək. Birincisi, İndoneziya OPEK ölkələrinin sırasından imtina etdi və çıxdı. Onun 650-700 minə yaxın kvotası var idi. Həmin kvotanı azaltmaq istəmədi və OPEK-i tərk etdi. Avtomatik olaraq OPEK-in kvotası 700 min barel azalmış oldu. Ancaq OPEK razılıq qərarında göstərir ki, hasilatı 1,2 milyon barel azaltmaq barədə razılıq əldə olunub. Bunun 700 mini İndoneziyanın qurumdan çıxması nəticəsində baş verib. Deməli, kvota ancaq 500 min barel azalıb. Bu da ilkin olaraq nəzərdə tutulduğu səviyyəyə yenidən geri dönməkdir. Çünki OPEK-in cəmi bir neçə ay əvvəl onsuz da gündəlik hasilatı 32,5 milyon barel idi. Yenidən sanki həmin dönəmə qayıdır. Bütün bu fundamental faktorlar yenidən bazarda diqqətə alındıqda, əsas götürüldükdə neftin qiymətində yenidən geri çəkilmələr müşahidə edə bilərik. Amma sanki neft bazarı daha kəskin ucuzlaşmadan sığortalandı. Yəni ekspertlər düşünürdülər ki, bu toplantıdan heç bir qərar çıxmasa, neft yenidən 30 dollarlara qədər ucuzlaşa bilər. Ən azından, neft bazarı bu qorxudan qurtuldu və yaxın gələcəkdə 45-50 dollar koridorunda neft qiymətlərini olması ehtimalı çox yüksəkdir".

**Ekspertin sözlərinə görə, Azərbaycana gəldikdə, nə qədər qiymət baha olsa, ölkəyə o qədər çox sərf edir:** "Gəlirlərimiz baxımından qiymətin artması vacibdir. Amma Azərbaycandakı problemlərin kökü o qədər dərindir, struktur, idarəetmə ilə bağlı o qədər ciddi problemlər var ki, Azərbaycanda qiymətin təqribən 80-90 dollar olması lazımdır. Bu qiymətdə olsa, valyuta bazarında da, ölkə iqtisadiyyatında da sabitlik ola bilər. Amma düşünmürəm ki, yaxın illərdə belə bir yüksək həddə biz neft qiymətlərini görək".

**Ekspert Qubad İbadoğlu** isə bildirib ki, neftin qiyməti 110 dollara olsa, ölkə iqtisadiyyatında sabitlik yaranar: "Hesablamalar göstərir ki, indiki şərtlərlə bunun üçün 1 barel Azərbaycan nefti ən azı 110 dollara satılmalıdır. Belə qiymət isə heç üfüqdə də görsənmir. Azərbaycanda neft hasilatının piki 2010-cu ildə, neftdən əldə edilən gəlirlərin ən yüksək səviyyəsi isə 2011-ci ildə qeydə alınıb, yalnız o ildə Dövlət Neft Fonduna 19,8 milyard dollar daxil olub. Müqayisə üçün onu qeyd edək ki, DNF ötən il neft hasil edilmiş mənfəət neftinin və qazın satışından 7,2 milyon ABŞ dolları vəsait əldə edib. Həmin il ixrac edilmiş mənfəət neftinin ortaçəkili satış qiyməti 54,31 ABŞ dolları, xalis mədaxil qiyməti isə 48,06 ABŞ dolları olub. Keçən il gündəlik hasilat 634 min barel təşkil edib, bu il isə orta günlük hasilat ondan bir qədər az - 630 min barel gözlənilir. Bu il ilin yanvar-sentyabr ayları ərzində DNF-nin büdcə gəlirləri 6,6 milyon manat və ya kommersiya banklarının dekabrın 1-ə olan kursu ilə 3,7 milyard dollar olub. Bu hesabla ilin sonuna neft gəlirləri 2011-ci ildəki səviyyədən 4 dəfə az- 5 milyard dollar göstərilir. Ola bilər ki, pisləşən iqtisadi və sosial durumda azalan neft gəlirləri və artan ehtiyaclar yenidən neftin sabitləşdirici rolunun hansı qiymət səviyyəsində olması ilə bağlı müzakirələri aktuallaşdırır".

Ekspertin sözlərinə görə, 2001-2015-ci illər ərzində DNF-nin daxilolmaları 124,9 milyard ABŞ dolları səviyyəsində olub, bu vəsaitin 33,57 milyard ABŞ dolları və ya 26,9 faizi yığıma yönəldilmiş, 91, 33 milyard dolları və ya 73,1 faizi isə xərclənib: "Transferlərin start götürdüyü 2003-cü ildən bu ilin oktyabr ayının 1-dək Dövlət Neft Fondundan 67 milyard 162 mln. manat vəsait dövlət büdcəsi vasitəsilə əsasən qeyri-məhsuldar və əlavə dəyər yaratmayan qeyri-kommersiya layihələrinə yönəldilib. Beləliklə də, neft dollarları hesabına tikilmiş sosial, idman, mədəniyyət, nəqliyyat və sair sahələrdə infrastruktur obyektlərinin saxlanılması və istismarı üçün dövlət büdcəsinə əlavə və ciddi xərc öhdəlikləri yaradıb. Odur ki, iqtisadiyyatda sabitliyin bərpası üçün hazırda neftin qiyməti hansı səviyyədə olmalıdır sualına cavab axtararkən infrastruktura xidmətlə əlaqədar olaraq ildən-ilə artan xərc amilini də nəzərə almaq lazımdır. Bu isə o deməkdir ki, digər şərtlər dəyişməz qaldığı halda, Azərbaycan iqtisadiyyatını 2013-cü il səviyyəsinə qaytarmaq üçün dünya bazarında 1 barel neftin qiyməti ən azı 110 dollar olmalıdır. Belə qiymət isə heç üfüqdə də görsənmir. Odur ki, neft unudub, digər sahələrdə mövcud və perspektiv imkanları və resursları səfərbər etmək üçün hərtərəfli islahatlara başlamaq lazımdır. Çünki, neftin qiymənin indiki səviyyəsi islahat xarakterli dəyişikliklər üçün ən optimal qiymətdir. Bizə yalnız bu fürsətdən bəhrələnmək qalır. Belə şans isə həmişə olmur, onu dəyərləndirməsək yaxın 2 ildə sabitlikdən danışa bilməyəcəyik".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 269 (6890) 3 dekabr 2016

**Son bir neçə ayda mətbuatın barəsində ən çox yazdığı şəxs heç şübhəsiz ki, hazırda məhkəməsi davam edən MTN generalı Akif Çovdarovdur. Elə gün olmur ki, məhkəmədə ifadə verən zərərçəkmişlər onun barəsində sensasion ittihamlar səsləndirməsin, istintaq onun əməlləri ilə bağlı yeni detalları cəmiyyətə açıqlamasın.**





# "Atamın qorxunc obrazını yaradırlar" - Akif Çovdarovun oğlu etiraz edir

## Ruslan Çovdarov: "Dost-tanışa dedim, tələsməyin, artıra-artıra əmlakımızın məbləğini 100 milyona qədər çatdıracaqlar"

*Amma bu məlumatlardan ən çox narazı qalan A.Çovdarovun ailə üzvləridir. Xüsusən də oğlu Ruslan Çovdarov sosial şəbəkədəki statusunda zaman-zaman öz etirazını səsləndirir. "Yeni Müsavat" bu narazılıqları səsləndirməsi, eləcə də bizim suallarımıza cavab verməsi üçün bir neçə gün sosial şəbəkə vasitəsilə müsahibə üçün israr etdi.*

*Bir gün məhkəmə, başqa bir gün atası ilə görüş... Söhbətimiz uzansa da, axırıncı dəfə "mən bu gün atama istədiyi kitabları almaq üçün kitab mağazasına gedəcəm, vaxtım yoxdur", cavabını verdi. Dediyi saatda AVM-lərdən birində yerləşən kitab mağazasına getdik və budur, üz cizgiləri eynən A.Çovdarova bənzəyən gənc Çovdarov kitab seçir. Detektiv kitab bölməsində... Bunun özü də bir başqa söhbətin mövzusudur.*

*Ruslan beylə bulvardakı çayxanalardan birində oturub, bizi, sizi maraqlandıran bütün suallara cavab tapmağa başladıq.*

*(Əvvəli ötən sayımızda)*

***- Evin tək oğlusuz. Amma ailə üzvlərinizin adı bu yaxınlarda mətbuatda daha çox hallandı. Daha çox əmlak siyahısı yayımlananda. Məlum oldu ki, bazarın yarı hissəsi bacınızın adına idi. Başqa əmlaklar ananızın, sizin adınıza olub və sair. Bu qədər əmlakı atanız ailə üzvləri arasında bölüb?***

- Xeyr. Tamamən yanlış informasiyadır. Öncə qafqazinfo.az saytında belə xəbər çıxdı ki, Akif Çovdarovun 26 milyonluq əmlakı var. Bir həftə üstündən keçəndən sonra ya lent.az, ya da APA-da belə xəbər yayıldı ki, Akif Çovdarovun 33 milyonluq əmlakı var. Mən dost-tanış arasında dedim ki, tələsməyin, gələn həftə 40, ondan sonrakı həftə 50, sonra 60 milyona qaldıracaqlar bunu... Artıra-artıra 100 milyona qədər çatdıracaqlar. Siz özünüz də bilirsiz ki, yazını maraqlı etmək, oxutmaq üçün belə şişirtmələrə yol verir həmkarlarınız. Qaldı ki, əmlaklara, atamla mən eyni evdə yaşayırıq. Bizim bir evimiz var, içində yaşadığımız. Bir də dövlət tərəfindən verilən yeni tikilidə bir mənzilimiz var. Bir də bağımız var. Olan əmlakımız budur. Mənim iki bacım var, hər biri ailəlidir, ayrı-ayrı ailələr sayılırlar. Yeznəmin biri uzun müddət Rusiyada işləmiş iş adamıdır. Bayaq da sual verirsiz ki, nəylə dolanırsız? Təbii ki, bu günə qədər görülən işlərlə, bizneslə. Yeznəm orda atamla birgə taxta-şalban biznesində olub. O biri yeznəm də Gürcüstanda tanınmış, imkanlı, ziyalı ailədəndir. Əmircanov nəslindəndir.

***- Əsas sual da odur ki, general maaşı ilə onun əldə etdiklərini qazanmaq mümkün deyildi...***

- Bəli, bunu tez-tez deyirlər. Sırf bizneslə məşğul olmasının nəticəsidir onun əldə etdikləri. Mən dəfələrlə demişəm və yenə

**"Bayaq da sual verirsiz ki, nəylə dolanırsız? Təbii ki, bu günə qədər görülən işlərlə, bizneslə..."**

də deyirəm ki, 1996-97-ci illərdə sərəncama götürülmüşdü. O zaman Daxili İşlər Nazirliyində narkobiznesIə mübarizə baş idarəsinin rəis müavini idi. Müəyyən vaxt işsiz qaldı. Ailə saxlamaq asan məsələ deyil. Həmin vaxt atam özünə Rusiyada taxta-şalban biznesi qurdu. Yeznəm də onda Rusiyada yaşayırdı, bu işi onunla birgə qurdu. Məsələn, kimsə bina tikir. Siz də məndən xahiş edirsiz ki, bəlkə tanış bina tikənin var? Mənim də o insanla tanışlığım varsa, sizi o adamın yanına göndərirəm, siz də gedib o evi alırsınız. Bu gün də mənim başıma iş gəlir, həbs edilirəm, çətinliyə düşürəm. O dost dediyim adam gəlib istintaqa ifadə verir ki, Akif Çovdarov o evi mənim əlimdən alıb. Amma siz özünüz də bilirsiniz ki, o adamların əlində məbləğin tam ödənilməsi barədə qəbzlər var. Əmlakın şişirdilməsi də budur. Həmin ittiham aktının içində olan bütün evlər atamın adına yazılıb. Filan yerdə mənzil, Yasamalda 250 kvadratmetr sahəsi olan 6 mənzil və sair və ilaxır. Bunların hamısı kimlərinsə evidir. Ya da dələduzlardan zərər çəkənlərin, zərər çəkdikləri üçün bu evi qaytaranların evləridir. Hansısa dələduz bir evi iki nəfərə satıb, sonra o adamlar həmin evi qaytarıblar. Bu gün isə həmin işləri Akif Çovdarovun adına yazırlar.

***- Yəni, deyirsiz ki, o evlərdən heç bir kirayə əldə etmirsiz, onların sizə aidiyyatı yoxdur?***

- Nə kirayə, ay xanım? Mən deyirəm ki, bizim o evlərdən xəbərimiz belə yoxdur.

***- O zaman ANS sizin evinizin qabağından bir reportaj hazırlamışdı. Siz işdən çıxan vaxt. Badamdardakı üç villanı göstərib demişdilər ki, bunların birində Akif Çovdarovun özü, digər ikisində isə oğlu ilə qızı yaşayır...***

- Tamamilə yalandır. Atamla mən bir evdə yaşayırıq. Birində isə iş adamı olan yeznəmgil yaşayır. Qalanları qonşularındır. Yəni bizim Çovdarov ailəsinin bir evi var, qalanı ayrı ailənindi. Onun bizə nə dəxli var?

***- Əgər dediyiniz kimidirsə, bu evləri, mülkləri sizin atanızın adına yazmaqda, bu cür hallandırmaqda məqsəd nədir ki? Başqa maddə üzrə aça bilməzdilər cinayət işini?***

- Məqsəd Akif Çovdarovu cəmiyyətə pis, korrupsioner insan kimi təqdim etməkdir. İctimaiyyət də bunu gözəl anlayır. Bir həftə yazırlar 26 milyonluq əmlakı var, o biri həftə deyirlər, 33 milyonluqdur... Bu, nə dərəcədə inandırıcıdır?

***- Hər halda, bu informasiyanın mənbəyi istintaqdır. İstintaq bunu niyə etsin?***

- Bəlkə istintaqdır, bəlkə də qəzetlər bir-birindən köçürə-köçürə yalanı yayırlar, bilmək olmur ki? Olanın da üstünü artırırlar, şişirdib yayırlar. Nə var, nə var, iki nəfər daha artıq adam oxusun bunların yazısını...

***- Kürdəmirdəki balıq təsərrüfatından da danışaq. Siyahıda onun da adı var...***

- Ora mənim atamın yaxın dostunundur. Mən də istintaqda





**"Çovdarov ailəsinin orda bir evi var, qalanın bizə nə aidiyyəti?"**

ifadəmdə də vermişəm ki, iş başlayanda mən də ona qoşulmuşdum. Sənədləşmə işlərinə də səhv etmirəmsə, 10-15 min manat xərcim çıxmışdı. Sonradan o yerin yiyəsi - Fəttah müəllim bankdan kredit götürdü, yavaş-yavaş oranı düzəltdi. İndinin özündə də oranı idarə edir və tam mülkiyyət hüququ ondadır. Ordan mənim bir qəpik xeyrim olmayıb və yoxdur. Mən Milli Məclisdə işə düzələndən sonra bu işlərdən uzaqlaşdım. Rəsmi işim oldu...

***- Bəs adınıza yaradılan MMC?***

- Elə haqqında danışdığım söhbət bu idi də. Balıq təsərrüfatı ilə bağlı yaradılan MMC idi. Sənədləşmədə iştirak etdim, sonra bu işdən kənarlaşdım.

***- Kürdəmirdə aldığınız torpaq sahələri barədə iddialar da var. Hətta yerli əhalini ordan zorla çıxardığınız deyilir. Buna da bir aydınlıq gətirək.***

- Balıqçılıq təsərrüfatını bayaq da dediyim kimi, Fəttah Seyidov idarə edir, özü bu səviyyəyə çatdırıb, indi də mülkiyyət hüququ ondadır, o işlədir. Xeyri olur, olmur, özünün işidir. Mənim xeyrim o işdən odur ki, Bakıya gələndə üç balıq gətirər, oturub yeyərik. (gülür) Oradakı torpaq sahələrinə gəlincə, məsələn, yazırlar ki, nar bağımız olub, qiyməti də 500 min. Nar bağı sahəsi deyilən ərazi ilə bağlı 2011-ci ildə Fəttah müəllim icarə müqaviləsindən imtina etmişdi, icra hakimiyyəti onu başqa adama icarəyə vermişdi. İndi o adam həmin sahədə nar bağı salıb, ora pul qoyub, pul götürüb, öz işidir. Onu da bizim adımıza yazırlar. Başqa torpaq sahələri də onun kimi. Araşdırsaz görərsiz ki, həmin torpaq sahələrinin müqaviləsinə 2011-ci ildən xitam verilib və başqa adamların adına keçirilib.

***- Ruslan bəy, sizinlə bağlı yayılan informasiyalardan biri də odur ki, siz atanızın işlərində birbaşa iştirakçı olmusuz. Bəzən informasiya yığmaqda, bəzən vasitəçilik etməkdə, bəzən sə...***

- Tamamilə yalan informasiyadır. Heç vaxt atamın işinə qarışmamışam. Heç atam da həyatı boyu gəlib evdə işindən danışmayıb. Özünüz də bilirsiz ki, atamın iş xüsusi xidmət orqanında olub. Özü də işində güclü mütəxəssis, əməliyyatçı olduğu üçün heç vaxt işi barədə evdə danışmazdı. Bilirdi ki, bunu danışmaq olmaz. Ona görə də nə o, danışardı, nə də mən soruşardım. O ki qaldı, hansısa işində vasitəçilik etməyə...

## "Evdə biz onun səsini qaldırdığını eşitməmişik"

***- Kəndinizdən hazırlanan reportajları oxuduq. Kənd camaatı iddia edirdi ki, o, elinə-obasına çox yaxşı adam olub, can yandırıb-filan. Bəs evində, ailəsində necə idi? Məsələn, necə ata idi? Necə ər idi?***

- Təriflәmək kimi çıxmasın, amma deyəcəm. Çox gözəl ailə başçısıdır. Uşaqlarını, nəvələrini sevən adamdır. Görüşə gedəndə balaca oğlumu da özümlə apardım ki, şüşədən də olsa görsün heç olmasa. O qədər darıxırdı ki, nəvəsindən ötrü. Çox ailəcanlıdır atam.

***- Yəqin oğlunuza atanızın adını qoymusuz...***

- Yox, öz babamın adını qoymuşam - Temirxan. Elinə-obasına bağlı adamdır. İldə bir dəfə atamın məzuniyyəti olub. Onu da bütün ailə səbirsizliklə gözləyirdi ki, ailəlikcə kəndə gedəcəyik, tətilimizi orda keçirəcəyik.

***- Yay istirahətinizi hər zaman kənddə keçirirdiz? Avropada, Türkiyədə yox, kəndinizdə?***

- Yayı kəndə gedirdik. İldə bir-iki dəfə Gürcüstanda dincəlmişik. Təbii ki, xaricə də getmişik, başqa ölkələrdə də olmuşuq. Amma Gürcüstan bizim üçün ilk növbədə olub. Bu insan ondan həzz alırdı ki, kəndin çayxanasında otursun, kənd adamları, öz uşaqlıq dostları, ağsaqqallarla söhbət etsin, onların dərd-səri ilə maraqlansın... Adama da o pis təsir edir ki, atamın qorxunc obrazını yaradırlar. O biri tərəfdən heç soruşan olmayıb ki, onun heç müsbət tərəfi yoxdur?

***- Kənd camaatı deyirdi ki, atanız heç toyuq başı da kəsməyib. Doğrudanmı belə kövrək olub?***

- Əlbəttə. Çox kövrək olub, çox. Təriflәmirəm atamı, tanıyanlar bilir ki, yazılanlar atama uyğun deyil. Mən onun övladıyam, amma sizə deyirəm ki, mənə bir dəfə də olsun əl qaldırmayıb. Halbuki ata oğulu uşaqlıqda yüngülvari vurar da, cəzalandırar da. Evdə biz onun səsini qaldırdığını eşitməmişik. Çox ciddi adam olub, öz yerində. O otağa girəndə mən ayağa qalxmışam.

***- Ananızdan danışaq mümkünsə. O nə deyir bütün bu olanlara? Evdar xanımdır və hələ mətbuat onunla tanış deyil...***

*(Davamı növbəti sayımızda)*

**Sevinc TELMANQIZI**
**Foto: Məhəmməd TÜRKMƏN**

**"Görüşə gedəndə balaca oğlumu da özümlə apardım ki, şüşədən də olsa görsün heç olmasa. Atam o qədər darıxırdı ki, nəvəsindən ötrü. Çox ailəcanlıdır atam"**

**Son günlər Qarabağ cəbhəsində gərginliyin artdığı, düşmən tərəfinin itkilər verdiyi barədə xəbərlər gəlməkdədir. Dekabrın 1-də döyüşlər getdiyi haqda virtualaz.org-un xüsusi müxbiri Vahan Martirosyan xəbər verib. Xəbərdə deyilir ki, erməni tərəfi itki verib. Belə ki, erməni ordusunun bir hərbi qulluqçusu öldürülüb, doqquzu isə yaralanıb.**

# "Ermənistan danışıqlar öncəsi üstünlüyü ələ almağa çalışır"

## Müdafiə Nazirliyi cəbhədən gələn həyəcanlı xəbərlərə reaksiya verdi: "Erməni bölmələrinin təxribatlarının qarşısı qətiyyətlə alınır"; Elçin Mirzəbəyli: "Regiondakı durum əməliyyatların genişlənməsi üçün əlverişli deyil"

**Azərbaycan Müdafiə Nazirliyi düşmənlə təmas xəttində gərginliyin yaranması ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, erməni silahlı bölmələrinin təxribatlarının qarşısı qətiyyətlə alınır. Düşmənlə qarşıdurma xəttində əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarətindədir.**

İşğalçı erməni ordusunun son günlər nəzərəçarpacaq dərəcədə fəallaşması, döyüşlərin intensivləşməsi ilin sonuna yaxın genişmiqyaslı hərbi əməliyyatların başlanması ehtimalını yaradırmı? Ermənistan apreldəki kimi təxribata cəhd edə bilərmi? Regional beynəlxalq geosiyasi durum Qarabağ müharibəsinin başlanmasına hazırda imkan verir, yoxsa əksinə?

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, dekabrın 8-də Hamburqda keçiriləcək ATƏT-in nazirlər toplantısı çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü gözlənilir: "Azərbaycanın xarici işlər naziri Fransalı həmkarı ilə görüşdə 3+2 formatında təklif olunan görüşün keçirilməsinə razılıq verib. Ermənistanın xarici işlər naziri də belə bir görüşün baş tutacağını istisna etməyib. Cəbhə xəttində baş verən erməni təxribatlarının səbəblərindən biri, heç şübhəsiz ki, Hamburqda keçiriləcək görüşlə bağlıdır. Ermənistan ənənəsinə uyğun olaraq, danışıqlar öncəsi üstünlüyü ələ almağa çalışır və vəziyyəti gərginləşdirməklə prosesin konstruktiv müstəvidə inkişafına mane olmağa cəhd göstərir. Çünki xarici işlər nazirlərinin görüşü baş tutarsa və normal şəkildə keçərsə o zaman danışıqların növbəti mərhələsi-prezidentlərin görüşü üçün zəmin yaranır. Ermənistan isə bunu istəmir. Sarkisyan Ermənistanda keçirilməsi gözlənilən və hakimiyyətinin forma dəyişikliyinə imkan yaradacaq seçkilərədək prosesdən yayınmaq istəyir. Ermənistan prezidenti indiki halda münaqişənin tənzimlənməsi ilə bağlı heç bir addım atmaq istəmir. Bunu öz hakimiyyəti üçün təhlükə hesab edir. Digər tərəfdən, ortalıqda Rusiya faktoru var. Moskva ilə imzalanan müqavilədən sonra Ermənistan özünü daha rahat hiss etməyə başlayıb və cəbhə xəttində vəziyyəti gərginləşdirməklə həm də Rusiya ilə Azərbaycan arasında körpüləri tamamilə yandırılmasına səy göstərir. Ermənistanın lokal təxribatlara bundan sonra da can atması mümkündür, amma bunun yaxın bir neçə ay ərzində daha geniş hərbi əməliyyatlar müstəvisinə keçəcəyi inandırıcı görünmür. İrəvan Moskvanın razılığı olmadan öz imkanlarını və səlahiyyətlərini dəfələrlə üstələyən addım ata bilməz. Cəbhə xəttindəki təxribatların daha bir səbəbi iqtisadi amillərlə bağlıdır və lokal təxribatlarla həm diqqəti ölkənin iç problemlərindən yayındırmağa, həm də Azərbaycanı gərginlik altında saxlamağa çalışır".



**Politoloqa görə, regiondakı geosiyasi durum hərbi əməliyyatların genişlənməsi üçün heç bir halda əlverişli deyil**: "Qeyri-müəyyənlik var. Bu həm regional, həm də qlobal oyunçuların arasında mövcud olan qeyri-müəyyən vəziyyətlə bağlıdır. Bu vəziyyət həm Türkiyə-Rusiya, ABŞ-Türkiyə və İran-ABŞ, həm də Rusiya-ABŞ münasibətlərində nəzərə çarpır. Belə vəziyyətlərdə ehtiyatlı davranmağa üstünlük verən erməni siyasəti indikindən daha geniş təxribatlara əl ata bilməz. Çox güman ki, qeyri-müəyyənlik aradan qalxanadək Ermənistan qıcıqlandırıcı hərəkətlərini davam etdirəcək. Bu baxımdan hal-hazırda hərbi əməliyyatların daha geniş şəkil alacağı ehtimalı çox azdır".

❑ **Etibar SEYİDAĞA**

# Jirinovskiyə Bakı kommunistlərindən etiraz

## Rauf Qurbanov: "Onun kimi adamlar..."

**Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski Rusiya Dumasında çıxışı zamanı bütün kommunist təşkilatların qadağan edilməsi tələbini irəli sürüb. O, Rusiyada bütün bəlaların səbəbkarı kimi kommunistləri göstərib: "Məhz inqilabdan sonra Rusiyanın çətin zamanları başladı. Hər gün güllələnmə, qolodomor (Qolodomor-Ukrayna dilindəki iki sözdən-"aclıq" və "öldürmək" sözlərindən əmələ gəlib. 1932-1933-cü illərdə sovet kommunist rejimi tərəfindən Ukrayna xalqına qarşı törədilmiş soyqırım aktıdır) və digərləri unudulmayıb. Bundan qorxulusu heç vaxt, heç yerdə olmayıb".**


Rauf Qurbanov

Rusiyada xeyli dərəcədə güclü olan Kommunist Partiyası hələ ki, Jirinovskinin tələbinə reaksiya verməsə də Azərbaycan Kommunist Partiyası sərt reaksiya verib.

**Azərbaycan Kommunist Partiyasının sədri Rauf Qurbanov** "Yeni Müsavat"a bildirib ki, kommunizm heç kimə belə gətirməyib, bəlaları kapitalizm gətirib və gətirir. Kommunizm bəşəri dəyərlərə əsaslanan ideologiyadır. Ədalətli cəmiyyət üçün mübarizə aparan, insanlar arasında dostluq, yoldaşlıq əlaqələrinin güclənməsinə xidmət edən, bərabərliyə çağıran ideologiyadır. Kommunist təşkilatlarının və ideologiyasının qadağan olunması çağırışı xəstə təxəyyülün məhsuludur. Jirinovskini təkcə Rusiyada deyil, bütün dünyada normal siyasətçi kimi qəbul eləyən yoxdur. O, Rusiya siyasətinin klounudur. Jirinovski bir zamanlar Azərbaycan xalqı haqqında təhqiramiz ifadələr işlədirdi. Sonra gəldi Azərbaycana Azərbaycan xalqını təriflədi. Türkiyəni hədələyirdi, İstanbulu işğal etmək çağırışları edirdi. Bu yaxınlarda gəldi Türkiyəyə yaltaqlandı, İraqın və Suriyanın bir sıra ərazilərinin Türkiyə torpaqları olduğunu dedi. Bu adam siyasi kloundur, bir də gördün ki, sabah da durub kommunistlərə tərif söyləyə bilər.

Yəqin ki, Rusiya Kommunist Partiyası bu klounun dediklərinə sərt cavab verəcək. Azərbaycan kommunistləri Kommunist təşkilatlarının qadağan olunması avantürüst çağırışını qətiyyətlə pisləyir".

**R.Qurbanov bəyan etdi ki, kommunizm, sosializm getdikcə bütün dünyada qələbə qazanacaq:** "Zaman keçdikcə bütün dünya xalqları məhz bu ideologiyanın ən düzgün ideologiya olduğuna əmin olmaqdadırlar. Artıq bir sıra ölkələrdə seçkilərdə sosialistlər hakimiyyətə gəlməkdədirlər. Çərxifələyi dayandırmaq mümkün deyil. Çərxi-fələk artıq sosializm, kommunizm ideologiyalarının xeyrinə işləyir. Bütün dünyada gedən proseslərə baxanda bu görünür. Donald Trampın seçki platformasındakı müddəaların əksəriyyəti sol ideologiyaya məxsus idi. Yəni artıq hətta ABŞ-da belə, sol ideologiyaya keçid prosesi gedir. Çünki sadə insanlar məhz bunu seçir. Rusiyada kommunistlər daha güclüdürlər və Rusiyada kommunistlər gec-tez hakimiyyətə gələcək. Rusiyada kommunist inqilabının olacağına gecədən sonra gündüzün gəldiyinə inandığım qədər inanıram. Kapitalizmin formasiya olaraq yaşam dövrü Rusiyada da, dünyada da get-gedə başa çatacaq və onun yerini sosializm formasiyası tutacaq. Kapitalizm tarixin arxivinə gedəcək. Jirinovski və onun kimi adamlar bunu görürlər və bilirlər. Ona görə də narahatdırlar. Həmin narahatlığın təsiri altında da kommunist təşkilatlarını qadağan etmək kimi çağırışlar edirlər".

❑ **Etibar SEYİDAĞA**

# "Quduz it"in müdafiə naziri təyinatı nədən xəbər verir...

## ABŞ-ın Rusiyaya qarşı sərt siyasəti davam edəcək

**Donald Tramp dövründə ABŞ-ın xarici siyasət məsələsi 8 noyabrdan bəri bu ölkə və dünya mediasında ən çox müzakirə olunan mövzulardan biridir. Ekspertlər hesab edir ki, yeni prezident Tramp bu sahədə diletant olduğu üçün onun ABŞ xarici siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsində rolu olan strukturlara, xüsusən dövlət katibi və müdafiə naziri vəzifələrinə təyinatları xüsusi önəm daşıyır.**


Ceyms Mattis

Artıq ABŞ müdafiə naziri vəzifəsini kimin tutacağı məlum olub. D.Tramp Pentaqonun rəhbəri vəzifəsinə "Mad Dog" (quduz it) ləqəbi ilə məşhur olan general Ceyms Mattisi təyin edəcəyini açıqlayıb. Bəs Ceyms Mattis kimi generalın ABŞ müdafiə naziri təyin ediləcəyi nədən xəbər verir?

**Politoloq Şahin Cəfərli** bildirib ki, əslində ləqəb hər şeyi deyir: "General Mattis İraq və Əfqanıstan əməliyyatlarında ABŞ dəniz piyadalarına komandanlıq edib. İraqda böyük dağıntılarla nəticələnən Fəlluca əməliyyatını o planlaşdırıb və həyata keçirib. Əfqanıstandakı radikallar haqqında belə bir sözü var: "Qadınlara çadra geymədikləri üçün əzab verən bu adamları güllələmək çox ləzzətli işdir".

General Mattis Yaxın Şərqdə ən böyük təhlükə mənbəyi kimi İranı görür. İranla imzalanmış nüvə anlaşmasının əleyhdarıdır. Suriya məsələsində Trampdan fərqli fikirləri var, Əsəd rejimi və onu dəstəkləyən iranlılarla mübarizə aparmaq üçün müxaliflərin silahlandırılmasına tərəfdardır.

Rusiyaya münasibəti də sərtdir. Obama administrasiyasını Rusiyanın Ukraynaya qarşı siyasətinə zəif reaksiya verməkdə qınayır. Rusiyanın öz qonşuluğunda demokratik ölkələr görmək istəmədiyini, bu səbəblə ətrafında qeyri-sabitlik zolağı yaratdığını bildirir. "Putin bilir ki, o, bütün qaydaları poza bilər, Qərb isə istənilən halda bu qaydalar çərçivəsində oynayacaq. Bu, çox təhlükəli haldır" fikri də general Mattisə aiddir".

**Politoloq Natiq Miri** də Ceyms Mattisin İraq və Əfqanıstan əməliyyatlarında xüsusi fərqlənən, İrana, Rusiyaya münasibətdə sərt xəttin tərəfdarı olan general olduğunu qeyd etdi. Onun fikrincə, belə bir fiqurun Pentaqon rəhbəri gətirilməsi o anlama gələcək ki, Trampın zamanında da Rusiya ilə münasibətlərdə sərt siyasət əsas götürüləcək. Suriya və İraqda ABŞ hərbi mövqeyini gücləndirməyə çalışacaq. Əsəd rejiminə qarşı kəskin mövqedən çəkilməyəcək. İranla da münasibətlərdə sərt mövqe ortaya qoyulacaq.

**N.Mirinin sözlərinə görə, şübhəsiz ki, xarici siyasətdə dövlət katibi daha mühüm fiqurdur. Bu baxımdan ABŞ dövlət katibinin kimliyi dəqiq bəlli olandan sonra Trampın dövründə xarici siyasətin hansı istiqamət götürə biləcəyi haqda ətraflı proqnozlar vermək mümkün olacaq.**

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016

# Moskva və Ankaranın ortaq qayğısı - müharibə...



# Çavuşoğlu Bakıya Kremlin mesajı ilə gəlir? - Qarabağ ətrafında yeni gəlişmə

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bu gün Azərbaycana işgüzar səfərə gələcək. Bu barədə məlumatlı mənbələr xəbər yayıb. Çavuşoğlunun Bakıda ölkə rəsmi şəxslərlə görüşləri nəzərdə tutulub. Bu görüşlər zamanı bütün sferalar üzrə əlaqələrin perspektivlərinin diqqət mərkəzində olacağı, həmçinin Qarabağ konflikti də daxil, regiondakı situasiyaya dair fikir mübadiləsinin aparılacağı bildirilir.**

## Az öncə "5 rayon" müjdəsi verən Türkiyənin baş diplomatının rusiyalı həmkarı ilə görüşdən dərhal sonra Bakıya uçmasının mümkün səbəbləri; **rusiyalı politoloq:** "Müharibəni önləmək üçün təcil addımlar atılmalıdır..."

**Türkiyə baş diplomatının budəfəki Bakı səfəri onun Antalyada rusiyalı həmkarı Sergey Lavrovla görüşdən dərhal sonraya təsadüf eləməsi ilə diqqət çəkir. Xəbər verildiyi kimi, Sergey Lavrovun qardaş ölkə rəsmiləri ilə görüşündə ikitərəfli əlaqələrlə yanaşı, Yaxın Şərqdə (Suriya və s.), Güney Qafqazda vəziyyət, o sırada Dağlıq Qarabağ mövzusu müzakirə edilib. Lakin detallar açıqlanmır.**

Maraqlıdır ki, danışıqların ertəsi günü Türkiyə parlamenti Rusiya ilə "Türk axını" qaz boru kəmərinin tikintisi layihəsi haqqında sazişi təsdiqləyib. Yaxın günlərdə isə qanunu prezident Rəcəb Tayyib Ərdoğan imzalamalıdır. Yəqin ki, bu xüsusda hər hansı problem olmayacaq və iki dövlət arasında iqtisadi, energetik əməkdaşlıq əlaqələri daha yüksək səviyyəyə qalxacaq.

***

İstisna deyil ki, Türkiyə XİN başçısının bugünkü Bakı səfəri öncəliklə hər iki məsələ (Qarabağ və "Türk axını") ilə bağlı Azərbaycan rəhbərliyini məlumatlandırmaq, habelə iki qardaş ölkə üçün ortaq maraq və aktuallıq kəsb edən digər mövzulardan dolayı bir daha "saat əqrəblərini" tutuşdurmaqdır. O sırada Rusiya ilə Ermənistan arasında ortaq hərbi qruplaşmanın yaradılması haqda qərarın iki qardaş ölkənin təhlükəsizliyinə mümkün təsiri və yeni təhdidlər də diqqət mərkəzinə gətirilə bilər.

Xatırladaq ki, az öncə M.Çavuşoğlu Dağlıq Qarabağ problemindən danışarkən Azərbaycanın işğala altındakı 5 rayonun məsələsinin gündəmdə olması haqda anons vermişdi. Ardınca prezident Ərdoğan analoji ruhda açıqlama edərək, münaqişənin həllində irəliləyiş olmasının vaxtı çatdığını vurğulamışdı. Rusiya rəsmiləri, öncəliklə nazir S.Lavrov isə Ankaranın münaqişənin həllində mühüm rol oynaya biləcəyi barədə bəyanatlar səsləndirmişdilər.

Lavrovun kritik Türkiyə səfəri həm də belə nikbin bəyanatlar fonunda reallaşıb. Ola bilsin qardaş ölkənin səyləri ilə Qarabağ danışıqlarına yeni bir dinamika veriləcək. Hər necə, olmasa, növbəti və irimiqyaslı müharibə Türkiyənin də strateji maraqlarına cavab vermir, çünki o halda ən azından hazırda yüksəlişdə olan türk-rus münasibətləri və ortaq layihələr sual altına düşəcək.

***

Şübhə yox ki, bunu Rusiya tərəfi də bilir və ciddiyə alır. O üzdən Qarabağda yeni müharibənin önlənməsi indi Moskva və Ankaranın ortaq qayğısı kimi görünür. Savaşı önləməyin birinci şərti isə sülh danışıqlarında real irəliləyişə nail olmaqdan, işğal altındakı ərazilərin heç olmasa, bir qisminin qeyd-şərtsiz boşaldılmasından keçir. Bu isə təbii ki, Kremlin siyasi iradəsi, onun İrəvana təzyiqləri olmadan mümkünsüzdür. Ya da Azərbaycan özü zor gücünə işğalçını buna vadar edəcək. Üçüncü yol görünmür.

Maraqlıdır ki, bu günlərdə Rusiya prezidenti Vladimir Putinin təsdiqlədiyi xarici siyasət konsepsiyasında Dağlıq Qarabağ münaqişənin həlli Rusiyanın xarici siyasət prioritetlərindən biri hesab edilib. Sənəddə eyni zamanda qeyd olunur ki, Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhdən uzaqdır.

**Belə vəziyyət şübhəsiz ki, müstəsna olaraq, işğalçı Ermənistan və onun əsas müttəfiqi Rusiyaya görə yaranıb. Çünki Azərbaycan işğala məruz qalan tərəfdir və üstəlik, beynəlxalq hüquq çərçivəsində o, ermənilərə gedə biləcəyi ən böyük güzəşti açıqlayıb - muxtar respublika statusu. Rəsmi Moskva da, İrəvan da yaxşı bilir ki, Bakının bundan o yana güzəşti mümkün deyil. Əks halda müharibə qaçılmaz olacaq.**

***

**Bu barədə hərbi və siyasi ekspertlərin xəbərdarlıqları artmaqdadır. Məsələn, Rusiyanın tanınmış ictimai-siyasi xadimi Mixail Belyayev "Qarabağ ətrafında buludlar yenidən qatılaşır" adlı məqaləsində yazır: "Dağlıq Qarabağda yenidən həyəcanlı proseslər baş verir. Son xəbərlər göstərir ki, atəşkəs mütəmadi olaraq pozulur, cəbhədə gərginlik davam edir"(Publika.az).**

Müəllif daha sonra aprel döyüşlərində Azərbaycan Ordusunun əks-hücumla bir neçə strateji yüksəkliyi azad etdiyinə diqqət çəkərək qeyd edib ki, münaqişə ətrafında vəziyyət "nə müharibə, nə də sülh" mərhələsinə keçməkdədir: "Bölgədə vəziyyət sərtləşir. Aprel hadisələrindən 8 ay ötüb, lakin danışıqlar prosesi yenidən dalandadır. İndi də məlum deyil ki, Hamburqda ATƏT-in iştirakı ilə İlham Əliyev və Serj Sərkisyanın görüşü olacaq, ya yox. Cəbhə xəttindəki kəskinləşmənin danışıqların növbəti raunduna hazırlıq dövründə baş verməsi də təsadüfi deyil. Ötən illərin təcrübəsi göstərir ki, həmişə prezidentlərin görüşləri ərəfəsində Qarabağda gərginlik artır".

Belyayev münaqişənin həllinin Rusiyanın yeni xarici siyasət konsepsiyasında prioritetlərdən biri olduğunu qeyd edərək yazır: "Konsepsiyada həmçinin göstərilir ki, Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhdən uzaqdır. Görünür, İrəvan hakimiyyəti aprel məğlubiyyətindən sonra cavab zərbəsinə hazırlaşır. Yüzlərlə canlı qüvvə və texnika itirən Ermənistan müdafiə naziri Seyran Ohanyanı əvəz etdi. Həmçinin, Rusiyadan güzəştli kreditlə aldığı silahların yoxlanmasını keçirtdi. Bu, deməyə əsas verirdi ki, Ermənistan cəbhədə vəziyyəti öz xeyrinə dəyişmək üçün cəhd edəcək. Bu, hər şeydən əvvəl "Qarabağ klanı"nın hakimiyyətə gətirdiyi Serj Sərkisyanın ölkə daxilində öz mövqelərini qoruması üçün lazımdır".

Müəllif ardınca Azərbaycanın öz ordusunu gücləndirmək istiqamətindəki addımlarına diqqət çəkib. "Hətta neft qiymətlərinin düşməsinə baxmayaraq, hərbi büdcəyə qənaət edilmir. Hərbi sahədə Azərbaycan-Rusiya əməkdaşlığı fəal şəkildə davam edir, Bakı Pakistan, İsrail və Türkiyədən silahlar alır. Azərbaycan bununla regional balansı öz xeyrinə dəyişdirmək prinsipində qətiyyətlidir. Hətta Ermənistanın nümayiş etdirdiyi "İsgəndər" raketləri belə Bakını eyninə deyil. Görünən odur ki, son dərəcədə təhlükəli vəziyyət formalaşmaqdadır. Əgər Azərbaycan aprel uğurunu təkrarlasa, o zaman danışıqlarda polad iradəsini diktə edəcək və onun dediklərini ermənilərlə yanaşı, həmsədrlər də qəbul etmək məcburiyyətində qalacaqlar", - deyə müəllif vurğulayıb.

Rusiyalı ekspert Qarabağda tammiqyaslı müharibə versiyasının da gündəmdə olduğunu iddia edib: "Bu, hər şeydən öncə Rusiyanın ziyanınadır. Çünki müharibənin nəticəsinə uyğun olaraq ya Azərbaycan, ya da Ermənistan Rusiyadan üz döndərəcək. Ona görə də təcili bölgədə gərginliyin azaldılması üçün addımlar atılmalıdır. Bu, ən azından Qarabağ ətrafında 7 rayonun qaytarılması və Azərbaycan-Ermənistan iqtisadi əlaqələrinin qurulmasıdır. Moskva və Ankaranın Suriya məsələsində maraqlarının toqquşması, iki ölkənin Qarabağda xeyirli təsir göstərəcəyinə dair ümidləri kiçildir. Cənubi Qafqaz geosiyasi ziddiyyətlərin məngənəsinə sıxılıb və region xaosun potensial mərkəzinə çevrilib. Bu, barıt çələyinə partlamaq üçün kibrit yandıranlar həmişə tapılacaq".

***

**Bu xüsusda Mövlud Çavuşğolunun Bakı səfəri vəziyyətə müəyyən aydınlıq gətirə bilər. Söhbət müharibəni önləməkdən gedirsə və Kreml də bunda maraqlıdırsa, o zaman istisna deyil ki, Çauvsoğlu Bakıya həm də Moskvanın mesajı ilə gəlir.**

❑ Analitik xidmət

# Sosonun sinizmi, yoxsa unutqanlığımız?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Həftənin qalmaqallı hadisələrindən biri də gürcü əsilli Rusiya müğənnisi Soso Pavliaşvilinin Bakıdakı konserti oldu. Olaya diqqət çəkməmək də olardı, əgər adı çəkilən persona ilə bağlı bir mühüm və prinsipial detal olmasaydı.**

Söhbət ondadır ki, bu özündənrazı gürcü vaxtilə işğal altındakı Dağlıq Qarabağda separatçılar üçün konsert verib. Amma indi sanki heç nə olmayıbmış kimi və bizim ənənəvi ürəyi yuxalığımızdan, unutqanlığımızdan istifadə edərək Bakıda peyda olub.

Beləcə, ilk dəfədir işğal altındakı ərazilərə Azərbaycan dövlətinin razılığı olmadan səfər etmiş xarici vətəndaş üzrxahlıq-zad etmədən, vicdan əzabı və peşmançılıq hissi keçirmədən, səmimi etirafda bulunmadan paytaxtımıza gəlib. Yəqin indi öz aləmində düşünür ki, illər öncə elə düz hərəkət edibmiş ki, ona Azərbaycandan ciddi təpki olmayıb.

Bu üzdən Qarabağla bağlı çox pis bir presedentin yarandığını qeyd edə bilərik. Yəni bundan sonra niyə başqaları da Sosoya baxıb, onu hərəkətini təkrar etmək fikrinə düşməsin ki? Yetər ki, arxanda varlı-karlı azərbaycanlı oliqarx dostların olsun - Ağalarovlar kimi.

Soso da şübhə yox ki, məhz həmin dostları hesabına Azərbaycan xalqından üzr-filan istəmədən, sadəcə, XİN-ə məktub yazıb "Bakıya gəlmək istəyirəm" xahişində bulanmaqla istəyinə çatıb. Bəs yol verdiyi böyük xəta, günah əməl necə olsun?!

Deyilənlərə görə, S.Pavliaşvilinin konserti xeyriyyə məqsədi daşıyıb. Əldə olunan vəsait onkoloji xəstə uşaqlara veriləcəkmiş. Burda deyiblər, "Başını yarıb ətəyinə qoz tökmək". Yenə bəlkə hər şeyi ona bağışlamaq olardı, əgər Bakıda o, Şəhidlər Xiyabanını, Xocalı soyqırımı abidəsini ziyarət etsəydi. Bunu da özünə rəva bilmədi.

Gürcü müğənni o yana, bəs analoji hallarda prinsipial mövqe tutan Azərbaycan XİN-i nədən üzüyumşaqlıq edib görəsən? Axı, Pavliaşvilinin müraciətində peşmançılıq, üzrxahlıq adına heç nə yoxdur! Bu, o deməkdir ki, işğal altındakı ərazilərimizə o yenə, icazəsiz gedə bilər. Zatən, az öncə buna anons da eləmişdi.

Bu səbəbdən tanınmış azərbaycanlı dramaturq Ramiz Fətəliyev tam haqlı olaraq konsertdən öncə ona açıq məktub yazaraq, Bakı səfərindən imtina etməyə çağırmışdı. Pavliaşvili isə nəinki onun müraciətini saya salmadı, üstəlik, faktiki, xalqın mövqeyini ifadə edən R.Fətəliyevi aşağıladı, ziyalılıqla bir araya sığmayan sinizm nümunəsi göstərdi. Lap dəqiqi, özünü xam kimi apardı, yekəxanalıq elədi. Sanki demək istədi ki, "Əcəb edib Qarabağda icazəsiz getmişəm! Kefim indi də istəyir Bakıya gələm və gələcəyəm də!" Gəldi də...

Görəsən Rusiyanın işğalı altında olan Abxaziya və Cənubi Osetiyada hansısa erməni müğənni gedib icazəsiz konsert versəydi, gürcü müğənni buna necə baxardı? Yenə "sənət sərhəd tanımır" kimi şablon tezisi gözə soxub boşboğazlıq edərdimi? Yeri gəlmişkən, ünlü gürcü Vaxtanq Kikabidze Abxaziya və Cənubi Osetiyanın işğalına etiraz olaraq, neçə vaxtdır Rusiyaya getmir...

Ancaq adamın acığı həmin bu sırtıq gürcüdən daha çox, ona fürsət yaradan özümüzkülərə tutur. Onun Bakı "triumfuna" görə günahdan ən böyük pay da elə onların, bir də konsertə gələn soydaşlarımızın üzərinə düşür. Zira, məhz onların sayəsində ərazi bütövlüyümüzə sayğısı olmayan sosoların ayağı yer tutur. Yaxşı ki, QAT-çılar orada etiraz aksiyası keçirməyə cəhd eləməklə bir növ, millətin üzünü ağartdılar.

Amma keşkə, zal boş qalaydı. Axı, bizim üçün müqəddəs olan nədir - Vətən, torpaq, Qarabağ, bundan doğan prinsipiallığımız, yoxsa bizi ələ salan 3-cü, 4-cü dərəcəli müğənniləri o saat əfv edib də, Bakıya gətirib də, əllərinə gül-çiçək, təzə kart-blanş vermək?! Məgər ələ salınan Vətən hamının deyil?

Nə tez yumşalırıq belə? Niyə anlamırıq ki, Qarabağa görə prinsipilallıqdan geri durmaq - elə Qarabağa iddiadan geri durmaq, separatçı rejimin tanınmasına dolaysıyla dəstək vermək deməkdir? Biz nəzərə və ciddiyə almalıyıq ki, bu məsələdə kimsəyə güzəşt və ya istisna ola, heç kimə "lüks" tanına bilməz - ranqından, vəzifəsindən, kasıb-zəngin olmasından, arxasında kimin durmasından asılı olmayaraq! Çünki bir dəfə keçilən "qırmızı xətt" yenə keçilə bilər.

**Qarabağ üçün "qırmızı xətt" hamı üçün keçərsiz olmalıdır! Əks halda, torpaqlardan keçməli olacağıq!**

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016

# "Rabitə çete"sinin məhkəməsində ilginc faktlar üzə çıxır

**Dekabrın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**
**Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqdirləndirilənlərdən biri - "Optik Qurğular" İdarəsinin rəhbəri Namazalı Məmmədov ifadə verib.**

## Eldar Mahmudovun göstərişinə görə oğlunun şirkəti ilə bağlanan məxfi müqavilələr; "Məqsəd xaricdən gələn gizli zənglərin aşkar edilməsi idi"; Bizə yalvarırdılar ki, gəlin bizim işlərimizi görün"...


Vidadi Zeynalov


Eldar Mahmudov

4 milyon manat mənimsəməkdə ittiham olunduğunu söyləyən N.Məmmədov bildirib ki, onun rəhbərlik etdiyi idarənin hələ də gördüyü işlərə görə "Aztelekom" MMC-dən 16 milyon alacağı var: "4 milyon mənimsədiyim yazılıb, 7,4 milyonu da mənimsəməyə cəhd etdiyim deyilir. Bu halda da mənim alacağım var. Mən niyə burda oturmalıyam?"

**Hakim Əfqan Hacıyev N.Məmmədovun çıxışına düzəliş edərək deyib:** "Siz 12 milyondan artıq məbləği mənimsəməkdə təqsirləndirilirsiniz. Həmin məbləğin 4 milyonunu özünüz götürmüsünüz. İttiham aktında belə yazılır".

O qeyd edib ki, "Aztelekom" rəhbərliyi onlarla işləməyə maraqlı olub: "Onlar bizə yalvarırdılar ki, gəlin bizim işlərimizi görün. Necə tanışlıq ola bilər ki, biz aylarla pulumuzu ala bilmirdik. 16 milyon alacağım da qalıb".

Növbəti ifadə verən şəxs isə həbs edilən Cəlil Cəfərov olub. "AzİnTelekom" MMC-nin sabiq baş direktoru olmuş Cəlil Cəfərov çıxışında ona qarşı irəli sürülən ittihamlarla razılaşmadığını deyib.

"Bizim qabaqcadan planlaşdırılmış şəkildə Vidadi Zeynalovun rəhbərliyi ilə mütəşəkkil dəstə yaratmağımız yalandır. Bunun heç bir əsası və izahı yoxdur"- deyən C.Cəfərov qeyd edib ki, hər ay paket formasında 50 min manat maaş alıb: "Biz Bakıda keçirilən beynəlxalq yarışlarda, həmçinin Avropa Oyunlarında yüksək səviyyədə işləmişik, mükafatlandırılmışıq da. Biz həbs olunandan sonra "Rabitə" Voleybol Klubu da dağıldı. Azərbaycan internet üçün beynəlxalq kanalı Rusiya üzərindən alırdıq, onlar monopoliya qurmuşdular, bizi kənara çıxmağa buraxmırdılar. Almaniyadan kanala qoşulduq və qiyməti 10 sentdən 2 sentə endirdik, xərclər 300 milyon azaldı".

**C.Cəfərov bütün işləri qanunlara uyğun olaraq apardığını və nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirdiyini söyləyib:** "İttiham aktında qeyd edilib ki, "Rostelekom" guya daha aşağı qiymətlər təklif edib. Orada cinayətkarlıq baş alıb gedirdi, bunu MTN də araşdırmışdı. Mağazalara pulsuz aparat verirdilər ki, guya wi-fi gücləndirilir. Həmin aparatları açanda qapaqda xüsusi hissə vardı, orada mobil nömrə yerləşdirdilər. Yəni, mini mobil operator yaradırdılar. Sonra onun üzərindən insanlara zəng edirdilər. Həmin vaxt insanlara beynəlxalq nömrələrdən zəng gəlirdi, araşdıranda görünürdü ki, yerli nömrədir. Onlar elə peşəkar oğurluq edirdi ki, heç qeydiyyata da düşmürdü. Biz bunlarla mübarizə aparırdıq. MTN (artıq ləğv edilib-red.) də bizi sıxışdırırdı. Çünki həmin nömrələrdən kimin zəng etdiyi bilinmirdi. Bəlkə terrorçular bu xətlərdən istifadə edirdi? Çünki terrorist də belə zəng edə bilərdi. Biz tutulandan sonra yenə də bunlar ortaya çıxdı və indi daha çoxdur".

C.Cəfərov ittiham aktında qeyd edilən sabiq nazir Eldar Mahmudovun oğlu Anar Mahmudovun yaxın dostu Ayaz Kərimovun adına təsis edilmiş "Cartburg" şirkəti ilə görülən işdən də danışıb.

C.Cəfərov deyib ki, "Cartburg" şirkəti ilə əməkdaşlığa başladıqdan sonra ona aylıq 300 min dollar verilib: "Mən bu pulun paket şəklində verilməsinə etiraz etdim. Dedilər ki, MTN-in rəhbərliyi ilə razılaşıb. Həmin pul da bizim işçilərin maaşlarına ayrılıb. Çünki bizim işçilər əlavə işlər görürdülər".

**C.Cəfərov "paket" olaraq aylıq 50 min manat almasını da təsdiqləyib:** "Danılası bir şey yoxdur. Aylıq 50 min paket almışam. Başqa ölkələrdə bu bonusdur, bizdə isə paket. Həmin puldan özümə xərcləsəydim, başqa bir obyektim və ya bağım olardı. Mənə daha yüksək maaşla başqa müəssisələrdə çalışmaq təklif olunub. Ancaq mən dövlətim, xalqım üçün çalışmağı üstün tutmuşam. İşimi düzgün görmüşəm, "Rabitə" klubunu da ən uğurlu şəkildə çıxış etməsinə nail olmuşam. Mən nə demişəmsə, istintaqa da bunu demişəm".

**Növbəti məhkəmə prosesi dekabrın 7-də keçiriləcək.**

**C.Cəfərov barəsində bəraət hökmünün çıxarılmasını istəyib: "İstintaq zamanı da araşdırılıb. Adıma başqa bir obyekt, iş yoxdur. Bəs mən bu pulu hara mənimsəmişəm? Bu kağız yeməli deyil ki, mən bunu yeyim".**

C.Cəfərov sualları cavablandırarkən bildirib ki, "Cartburg" şirkəti ilə müqavilə bağlanması göstərişini Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və ləğv edilmiş MTN-nin rəhbərliyindən alıb: "Bu şirkətlə əməkdaşlıq dövlətin təhlükəsizliyi məqsədi ilə edilib. Bununla bağlı Eldar Mahmudovla da danışıqlar olub və göstəriş verilib ki, "Cartburg" şirkəti ilə işləyək. Bununla da xaricdən edilən gizli zəngləri, danışıq trafikindəki qanunsuz şəbəkələri aşkarlamaq məqsədi var idi".

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə suçlanır. Bu məbləğdən "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyi üzrə 43 milyon 367 min; "Aztelekom" MMC üzrə 51 milyon 233 min; "Azərpoçt" MMC üzrə 23 milyon 846 min; "Azintelekom" üzrə 22 milyon 471 min; "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC, "Optik Tikinti və Montaj" MMC və "Rabitə-Tikinti" ASC üzrə 12 milyon 224 min manat mənimsənildiyi iddia olunur.

**517 cildlik cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.**

❑ **İlkin MURADOV**

# İki dəfə prezidentliyə namizəd olan akademik dünyadan köçdü

## Nizami Süleymanov II Fəxri Xiyabanda dəfn olundu

**Azərbaycan Milli Yaradıcılıq Akademiyasının prezidenti, AMEA-nın müxbir üzvü Nizami Süleymanov dekabrın 2-də vəfat edib. Akademiklə vida mərasimi Bakıdakı Heydər Məscidində olub. Mərhum II Fəxri Xiyabanda dəfn olunub. Yas mərasimində ölkənin tanınmış siyasi, elm adamlar iştirak ediblər.**



N.Süleymanov həm Azərbaycan siyasətində, həm də elm sahəsində tanınmış simalardan olub. Onu həm də vaxtı ilə ANS-də yayımlanan "Qulp" verilişindən yaxşı tanıyırlar.

N.Süleymanov 25 oktyabr 1945-ci ildə Əli Bayramlıda (indiki Şirvan) doğulub. Azərbaycan Politexnik İnstitutunu bitirib. Ölkəmizdə keçirilən 1992 və 1998-ci illərdəki prezident seçkilərində namizəd olub. Mərhum akademikin ilk debütü kifayət qədər uğurlu alınıb. 1992-ci ildə Əbülfəz Elçibəyin əsas rəqibi olan N.Süleymanov Azərbaycan Ziyalılarının Demokratik İttifaqından prezidentliyə namizəd olmuş və yekun nəticədə 1,017,217 seçicinin səsini qazanaraq 33.8% səslə II yeri tutub. 1998-ci ilin prezident seçkilərində də qatılan mərhum akademik bu dəfə 8%-dan artıq səs toplayaraq 3-cü yerdə qərarlaşıb.

N.Süleymanovun elmi fəaliyyəti də diqqətçəkəndir. O, 1989-cu ildə maşınqayırma ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilib. 202 elmi əsərin müəllifidir. Bunlardan 181-i Azərbaycandan xaricdə çapdan çıxıb. 56 müəlliflik şəhadətnamələrinin və patentlərin müəllifidir.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, xalq şairi Sabir Rüstəmxanlı** N.Süleymanovu belə xatırlayır: "Azərbaycanın son 30 illik ictimai, siyasi, mədəni, elmi dünyasında parlaq simalardan biri olan şəxs kimi yaddaşlarda qalacaq. Onu gənclik illərindən tanıyıram. Mənim orta məktəb yoldaşlarımdan biri ilə çox yaxın dost idi. Biz siyasətdən daha çox yaxın dost olmuşuq. Onunla daim yaxın münasibətlərimiz olub. Amma son iki ildə Nizami ilə demək olar ki, əlaqələrimiz tam itmişdi. İşlərimin çoxluğu da burada mühüm rol oynadı. Çox təəssüflənirəm ki, o dünyadan köçdü. Nizami alternativ Elmlər Akademiyası yaratmışdı. Həmin akademiyanın fəxri doktoruyam. Həyatımız elədir ki, ən yaxın saydığımız şəxslərlə belə davamlı ünsiyyət qura bilmirik, yaxud ünsiyyəti qoruyub saxlaya bilmirik. Nizami Süleymanovun fantastik, başqalarına görünməyən elmi axtarışları var idi. O, elmi axtarışlarında öz düşüncələri olan bir alim idi. Hətta özündə o cəsarəti belə tapmışdı ki, dövlətə bağlı olmayan ikinci bir akademiya yaratmışdı. Onun elmi fəaliyyəti kifayət qədər geniş idi".

Xalq şairi mərhum akademikin zamanında yaşadığı problemlərə də toxundu: "Nizami bir çox problemlər də yaşadı. Seçkilərdə iştirakı, eləcə də qəflətən siyasi səhnəyə çıxıb xeyli sayda səs seçicinin səsini alması ilə bağlı çoxsaylı problemlərlə üz-üzə qaldı. Sonralar siyasətdən uzaqlaşdı. Görünür, son dövrlər xəstəliyi var imiş, təəssüf ki, mənim xəbərim olmayıb. Allah ona rəhmət eləsin".

Vaxtı ilə **"Qulp" verilişinin aparıcısı olan tanınmış telejurnalist Mübariz Əsgərov** N.Süleymanovun daim yaddaşlarda qalacağını bildirdi: "Nizami müəllimi gözəl alim kimi həmişə xatırlayacam. Onu itirmək bizim üçün çox ağırdır. Heç zaman fikirləşməyəcəm ki, o mənim üçün itib. Uzun illər onunla bir yerdə "Qulp" verilişini hazırlamışıq. Azərbaycanda barmaqla sayılan alimlərdən biri idi. Özünəməxsus yolu var idi. Eyni zamanda siyasi fəaliyyəti də var idi. "Qulp" verilişindəki çıxışları xalq tərəfindən maraqla qarşılanırdı. Buna səbəb də, beynəlxalq aləmdə və respublika daxilində baş verən hadisələrə biz qəbul olunmuş deyil, yeni baxışla baxırdıq. Bir xatirə danışacam. Bir dəfə onu studiyaya dəvət edəndə Amerikada demokratlar təzə hakimiyyətə gəlmişdilər. Nizami müəllimə sual verdim ki, demokratların simvolu eşşəkdir, bəs bunlar niyə özlərini eşşəkliyə qoyub Azərbaycanın problemlərinə hörmətsiz yanaşırlar. Nizami müəllim də çox orginal cavab verdi ki, vaxt gələcək bunların ağılları başlarına gələcək, eşşək palçığa bir dəfə batır, vaxt olacaq Azərbaycanla daha çox iqtisadi əməkdaşlıq edəcəklər, öz səhvlərini təkrar etməyəcəklər.

Dünyada baş verən hadisələri də Nizami müəllim gözəl şərh edirdi. Yadımdadır ki, iqtidarla müxalifət arasında qarşıdurmaların ən kritik vaxtında bəzi radikal müxalifətçilərə qarşı polislərimiz güc tətbiq edəndə Nizami müəllim studiyadan çıxışında dedi ki, milli polislərimiz, müxalifətçilərə belə güc tətbiq etməyin, başından vurmayın, onları vuranda yumşaq yerlərindən vurun, bunlar müxalifətdir, ola bilsin seçkilərdə qalib gəldilər, bunların başları xarab olsa, bizim vəziyyətimiz necə olar. Yəni bir az zarafatla həqiqətləri deyirdi. Açığı, bunlar da tamaşaçıların xoşuna gəlirdi. Verilişdə demokratiyanın verdiyi imkanlardan tam istifadə edib hadisələrə baxırdıq. Burada nə müxalifət, nə də iqtidar faktoru var idi. Onunla olan söhbətlərim heç vaxt yaddaşımdan silinməyəcək. İndinin özündə də məni görənlər deyirdilər ki, həm "Qulp"dan, həm də Nizami müəllimdən ötrü çox darıxmışıq. Elm üçün də böyük itkidir".

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016



# Ermənistan 2016-cı ilin son görüşündən imtina edir -düşmən savaşı seçir

## Kremlin Qarabağ məsələsinin həllini xarici siyasətin prioritetləri bölümünə salmasına fərqli yanaşmalar var; **Arzu Nağıyev:** "Rusiya özü də bu məsələlərdə maraqlıdır və tələsir"; **Şahin Cəfərli:** "Hazırda Qarabağ məsələsinin həlli Rusiyanın inhisarındadır"

**Azərbaycan bütün təhdidlərə və Ermənistanın aqressiv siyasətinə rəğmən xarici işlər nazirlərinin Hamburq toplantısında işğalçı ölkənin XİN başçısı ilə görüşə hazır olduğunu desə də, qarşı tərəf hələ ki bununla bağlı razılığını bildirməyib. Gerçəklik budur ki, aprel döyüşlərindən sonra prezidentlərin Vyana və Sankt-Peterburq görüşünü təşkil etmək mümkün olsa da, danışıqların sayca üçüncü raundunu təşkil etmək cəhdləri iflasa uğrayıb.**

Bu mənada 2016-cı ilin son ayında XİN başçılarının görüşünə nail olmaqla həmsədrlər öz "fəaliyyətlərini" gözə soxmağa çalışırlar. Lakin E.Məmmədyarovun son açıqlamaları ondan xəbər verir ki, qarşı tərəf danışıqları dondurmağa daha çox üstünlük verir. XİN başçısının açıq şəkildə "Son vaxtlar Ermənistan tərəfdən xoşagəlməz bəyanatlar gəlir. Bu bəyanatlar sülh prosesində mənfi rol oynayır. Görüşlərdə danışıqlar bu şəkildə aparılmır" deməsi durumun nə qədər kritik olmasından xəbər verir. E.Məmmədyarovun sözlərinə görə, müzakirə olunan sənəddə də qeyd olunur ki, Ermənistan qoşunları işğal olunmuş ərazidən mərhələli şəkildə çıxarılmalıdır. Nazir ermənilərin daim qabartdığı status məsələsinin də müzakirə olunduğunu deyib. "Lakin əgər ilk mərhələdə statusu qaldırsaq, bu sülh prosesini öldürmək deməkdir. Çünki gərək azərbaycanlı icması Dağlıq Qarabağa qaytarılsın. Onlar da oranın sakinləridirlər", - deyə nazir əlavə edib (APA). O, Ermənistan tərəfinin hələ də Hamburq görüşü ilə bağlı cavab vermədiyini bildirib: "Onlar görüşdən də qaçırlar. Demək sülh prosesinə dəstək vermirlər".

Ermənistan prezidentinin mətbuat xidmətinin rəhbəri Vladimir Akopyan isə Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılmasının müzakirə mövzusu olmadığını bildirib. O, "Azadlıq" radiosunun erməni xidmətinə açıqlamasında bir şərtlərinin olduğunu deyib. "Hansısa ərazinin qaytarılması məsələsi Qarabağın statusunun müəyyənləşdirilməsi halında müzakirə oluna bilər" - o qeyd edib. Bəzi erməni ekspertlər isə hələ də "köhnə bayatılar"ı davam etdirərək Rusiyanın Azərbaycanla yaxınlaşdığını iddia edirlər. Bununla da onlar Kremlin Ermənistana hədiyyə etdiyi "İsgəndər"ləri, işğalçı ölkə ilə birgə hərbi birləşmə yaratmasını unutdurmağa çalışırlar. Erməni politoloq Riçard Kirakosyan iddia edib ki, Rusiyanın Azərbaycanla münasibətlərini yaxşılaşdırmaqda davam etməsi "Qarabağ üçün təhlükəlidir".

Azərbaycan parlamentində isə vəziyyətlə bağlı müxtəlif çağırışlar oldu. Hətta Rusiyanın Ermənistana hərtərəfli dəstək verməsi səbəbindən danışıqların İrəvanla yox, onun "ağası" Moskva ilə aparılması təklifi səsləndi. Bu arada Rusiya Federasiyasının yeni xarici siyasət konsepsiyasında Qarabağ məsələsinin də həllini tapması Kremlin bu münaqişə ocağına özəl yanaşmasından xəbər verir. Belə ki, Qarabağ münaqişəsinin nizamlanması yeni xarici siyasət konsepsiyasının regional prioritetləri bölümünə salınıb. Rusiyanın münaqişənin həlli ilə bağlı "yardımının" əslində işğalçıya yönəldiyini və vasitəçilik prinsiplərinə uyğun gəlmədiyini son aylar hər kəs müşahidə edir. Bu mənada şübhə yox ki, Moskva Qarabağı prioritetləri sırasına daxil etməklə əslində Bakını hərb yolundan çəkindirməyə, ona "müharibəyə başlasan, qarşında məni görəcəksən" mesajını verməyə yönəlib. Bu mənada Azərbaycanın mövcud durumda alternativlərə əl atması, hətta Türkiyə ilə birgə ordu hərbi birləşmələr yaratması təklifi də səslənir. Şübhə yoxdur ki, İrəvanın danışıqlardan yayınması da Moskvadan gələn təlimatların məntiqi nəticəsidir. Rusiya heç bir halda onun iradəsindən kənar təşəbbüslərin müsbət nəticə verməsini istəmir. Xüsusilə də Qərblə Rusiya arasında gərginliyin pik nöqtəyə qalxdığı bir dönəmdə...

**Politoloq Arzu Nağıyev**in fikrincə, Ermənistan rəhbərliyi sanki bir dilemma qarşısında qalıb: "Rusiya tərəfi onlara qismən təsir göstərir və nəyin bahasına olursa-olsun Dağlıq Qarabağ münaqişəsinin həllində müəyyən bir müsbət irəliləyişə nail olmaq istəyir. Burada bir neçə rayonun qaytarılması, konkret addımların atılması üçün danışıqlara getmək tələbindən söhbət gedə bilər. Təbii ki, Rusiyanın əsas məqsədi regional nüfuzunu bərpa etmək və saxlamaq cəhdidir. Eyni zamanda Rusiya Ermənistanı silahla təchiz edir və tərəfdaş olduğunu göstərir. Ermənilər danışığa gəlmək üçün Azərbaycan tərəfdən qoyulan suallara konkret cavab verməlidirlər. Məhz bu cavablar yoxdur deyə, hətta görüntü naminə olan danışıqlardan da qaçırlar. Zənnimcə, son vaxtlar bir sıra erməni millətindən olan "hüquq müdafiəçi"lərinin Azərbaycana gəlməsi, Sərkisyanın müsahibəsi və müsahibədə bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deməsi də Rusiyasız mümkün ola bilməzdi". Bu mənada A.Nağıyev hesab edir ki, Rusiya özü də bu məsələlərdə maraqlıdır və tələsir: "Çünki regional layihələrə qoşulmaq cəhdi, Türkiyə ilə olan münasibətlərin tənzimlənmə mexanizmi, sanksiyalardan qurtulmaq, Suriya və İraq böhranı bəyanatlardan o yana keçmir. Qərb məhz Dağlıq Qarabağ münaqişəsinin həllinin açar fiquru qismində SSRİ-nin varisi kimi Rusiyanı görür. Bundan başqa ABŞ-da cənab Trampın prezident seçilməsi də münaqişə ilə bağlı müəyyən korrektələr tələb edir. Sanki danışıqlarla bağlı prosesdə, ümumiyyətlə, xarici siyasətdə bir gözləmə mövqeyi yaranıb. Bütün bu vəziyyətdən çıxış yolu istənilən üsulla Qərbdən Rusiyaya, öz növbəsində Rusiya və digər maraqlı dövlətlər, ABŞ, ATƏT ölkələri, eyni zamanda Azərbaycan tərəfindən Ermənistana təzyiqi artırmaqdadır. Bu, həm hərbi təzyiq, həm iqtisadi sanksiyalar, həm də diplomatik yollar vasitəsilə həyata keçirilməlidir".

**Politoloq Şahin Cəfərli** isə "Yeni Müsavat"a bildirdi ki, Ermənistan Rusiya ilə hərbi müttəfiqliyini dərinləşdirən addımlar atdıqdan sonra daha kompromissiz mövqe nümayiş etdirir: "Azərbaycanın aprel döyüşlərindəki lokal uğurundan sonra ümid var idi ki, münaqişənin həlli sürətlənəcək, danışıqlar nəticəyönümlü olacaq və Ermənistan vasitəçilər tərəfindən güzəştlərə məcbur ediləcək. Danışıqlarda, diplomatik təmaslarda intensivləşmə müşahidə edilsə də, real nəticələr fərqli oldu. Rusiya Azərbaycanın xeyrinə pozulmuş hərbi pariteti bərpa etmək üçün Ermənistana müasir silah sistemləri verdi və iki ölkə arasında birləşmiş qoşun qruplaşması yaradılması rəsmiləşdi. Bunun əsas səbəbi odur ki, Azərbaycan tərəfi Rusiya ilə isti münasibətlər qurmasına baxmayaraq, strateji mənada bu dövlətin tələblərinə və gözləntilərinə uyğun siyasi kurs seçməkdən imtina etdi. Rusiya Azərbaycanın Avrasiya İttifaqına, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına meyllənəcəyini gözləyirdi və Sergey Lavrov açıqlamalarının birində bu istəklərini büruzə vermişdi".

**Ş.Cəfərlinin fikrincə, Moskvanın bu məsələyə baxışı belədir ki, əgər Azərbaycan da Ermənistan kimi onun bayrağı altına keçərsə və hər iki ölkə eyni siyasi-iqtisadi məkanda yer alarsa, o halda münaqişənin iki tərəfin də maraqları nəzərə alınmaqla həlli asanlaşar:** "Yeni Ermənistandan sonra Azərbaycan da Avrasiya İttifaqı və KTMT kimi Rusiyanın "yeni SSRİ" proyektlərinə qoşularsa, bu halda Dağlıq Qarabağın hansı inzibati sərhədlər çərçivəsində qalacağı strateji əhəmiyyət kəsb etməyəcək. Belə görünür ki, rəsmi Bakı ölkənin müstəqilliyindən imtina etməyə bərabər olacaq bu addımlara getmədi. Azərbaycan tərəfindən Rusiyanın tələblərinə zidd növbəti addım isə bilavasitə danışıqlar prosesində yaşandı. Rusiya və digər vasitəçilər təmas xəttində insidentlərin araşdırılması mexanizminin yaradılmasını tələb edirdilər. Belə bir mexanizmin yaradılması nəticəsində Azərbaycan ordusu zaman-zaman etdiyi kimi, ermənilərə lokal zərbələr endirmək imkanından məhrum olacaqdı. Bu, faktiki olaraq işğalçı tərəf üçün təhlükəsizlik qarantiyası demək idi. Azərbaycan bununla razılaşmadı. Ermənistana "İsgəndər" operativ-taktiki raket kompleksinin göndərilməsi və birləşmiş qoşun qruplaşmasının yaradılması məsələsinin reallaşması məhz bundan sonra baş verdi. Bunu Rusiyanın Cənubi Qafqazda öz mövqelərini gücləndirməsi, NATO-ya daxil olmağa hazırlaşan Gürcüstanı mühasirəyə alması və NATO üzvü Türkiyənin sərhədlərində daha da möhkəmlənməsi ilə yanaşı, həm də Azərbaycana təzyiq xarakterli addım kimi qiymətləndirmək olar".

**Politoloq əmindir ki, hazırda Qarabağ məsələsinin həlli Rusiyanın inhisarındadır:** "Bu ölkə neytral vasitəçilik missiyası ilə yaxından-uzaqdan əlaqəsi olmayan mövqe nümayiş etdirərək münaqişə tərəflərindən birini açıq şəkildə dəstəkləyir, onunla hərbi müttəfiqliyini daha da dərinləşdirir. Belə bir şəraitdə problemin Azərbaycanın maraqlarına uyğun, ədalətli həllini gözləmək sadəlövhlük olar. Ölkəmiz bu gün iqtisadi böhranla yanaşı, təhlükəsizlik sahəsində də böhran vəziyyəti ilə üzləşib. Biz faktiki olaraq müttəfiqsizik, Azərbaycanın təhlükəsizliyi üçün hər hansı beynəlxalq təminat yoxdur. Belə vəziyyətdə ekspertlərin də, sıravi vətəndaşların da ağlına gələn ilk fikir bu olur ki, Türkiyə ilə münasibətləri gücləndirməli və hərbi müttəfiqlik səviyyəsinə yüksəltməliyik. Lakin bu gün Türkiyənin daxilində və xaricində yaşanan gəlişmələr, onun cənub-şərq sərhədlərində mövcud olan risklər Ankaranın başqa bölgələrə müdaxilə imkanlarını azaldır. Türkiyə-Rusiya münasibətləri və Suriya məsələsində Ankaranın Moskvadan müəyyən mənada asılılığı da bizim üçün problem yaradır. Çünki Türkiyə Rusiya amilini nəzərə alaraq postsovet məkanına müdaxilə etməkdən çəkinir. Hələlik regional proseslər bizim xeyrimizə cərəyan etmir. ABŞ-da gələn il yanvarın 20-də Donald Tramp administrasiyası fəaliyyətə başladıqdan sonra vəziyyət yəqin ki, dəyişəcək, amma hansı istiqamətdə? Bunu hələ ki bilmirik. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun "Rusiyanın Qarabağ məsələsini çözmə iradəsinə hörmətlə yanaşırıq" şəklində açıqlaması da göstərir ki, Ankara bu məsələdə Moskvanın maraqlarına zidd getməyəcək".

**Türkiyə XİN-in başçısı Mövlud Çavuşoğlu** isə Azərbaycana səfərə hazıraşır. Bu ilin oktyabrında Türkiyənin xarici işlər naziri Azərbaycanın işğal olunmuş beş rayonunu qaytarılması məsələsinin gündəmdə olduğunu demişdi. Ancaq şübhəsiz ki, Rusiyadan aldığı hərbi dəstək İrəvanı öz mövqeyini yenidən sərtləşdirməyə həvəsləndirdi və güzəştlər yox, şərtlər səslənməyə başladı. Sərkisyanın Bakını tutacağı ilə bağlı sərsəm fikirləri məhz Rusiya-Ermənistan birgə hərbi birləşmələrin yaradılması barədə sazişin imzalanması ərəfəsinə təsadüf etdi. Əslində həm "İsgəndər" raketlərinin Ermənistana verilməsi, həm də bu ölkədə birgə ordunun yaradılması Azərbaycanla yanaşı, Türkiyəyə də təhlükə yaradır. M.Çavuşoğlunun Bakıya qarşıdakı səfərində də bu məsələnin müzakirə olunması istisna deyil.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016



# Deputatların etirazlarına rəğmən hökumət bildiyini etdi

## Parlament komitələrində 2017-ci ilin büdcə müzakirələri yekunlaşdı; gələn il idmana daha çox vəsait ayrılacaq

**Dekabrın 2-də Azərbaycan Respublikasının 2017-ci il üzrə büdcə zərfinin Milli Məclis komitələrinin birgə iclasında müzakirəsi davam etdirildi.**

MM-in sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova 2017-ci ilin büdcə layihəsindən bəhs edərkən dedi ki, müvafiq qurumlar öz işlərinin öhdəsindən layiqincə gəliblər, mövcud durumu doğru-düzgün dəyərləndiriblər: "Ən vacibi odur ki, bizi qarşıda gözləyən bəzi risklər barədə məlumatlandırıblar və proqnozlar veriblər. Bu mənada biz havadan götürülmüş iddiaları, istək və arzuları səsləndirən bir qrup insanın fikirlərini səsləndirməkdən uzaq olmalıyıq və reallığı nəzərə almalıyıq".

Maliyyə naziri Samir Şərifov bildirdi ki, 2017-ci il üçün Naxçıvan MR-nın büdcəsinin gəlir və xərcləri bərabər olaraq 348,4 mln. manat proqnozlaşdırılır. Nazirin sözlərinə görə, xərclərin 19,9 faizi və ya 69,5 mln. manatı Muxtar Respublikanın öz gəlirləri, 80,1 faizi və ya 278,9 mln. manatı dövlət büdcəsindən ayrılan dotasiya hesabına formalaşdırılacaq. Maliyyə naziri bildirib ki, dövlət büdcəsinin xərcləri təqribən 8 faiz azaldığı halda, blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərclərində azalma yalnız 0,8 faiz təşkil edəcək, bu isə sosial sahələrə təsir etməyəcək.

**"2017-ci ildə dövlət büdcəsindən bədən tərbiyəsi və idman sahəsinə ümumilikdə 34 milyon manat ayrılacaq"-deyə, nazir bildirdi:** "Gələn il gənclər və idman siyasəti sahəsinə ayrılacaq vəsait ötən ildəkindən çoxdur. Gələn il idman komplekslərinin saxlanılmasına 6,4 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur".

**Nazir qeyd etdi ki, 2017-ci ildə gənclər siyasəti sahəsində ən az pul vəsaiti ayrılacaq qurum Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu olacaq:** "Belə ki, Gənclər Fonduna gələn il üçün cəmi 1 milyon manat ayrılacaq".

**MM-dəki büdcə müzakirələrində çıxış edən Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadə** 33 şəhər və rayonun dotasiyadan məhrum edilməsindən bəhs etdi. Zahirən bu rəqəmlərin ürəkaçan olduğunu deyən komitə sədri yerlərdə vəziyyəti ciddi dəyərləndirmədən belə qərar verilməsini düzgün saymadı: "Bu, tamamilə düzgün hal deyil və strateji xəttimizə zidd məsələdir. Necə yəni, yerlərdə işləyənlərin ağlı çatmır, yoxsa səhlənkarlq edirlər. Əgər belədirsə, onları çıxartmaq, yenilərini qoymaq lazımdır. Neftçala rayonunun gəlirləri artmayıb, ancaq büdcəyə 4 milyon əlavə vəsait ödəməlidir. Nəyin hesabına? Elə edək ki, orada müəssisələr tikilsin, əlavə vəsait əldə olunsun. Bunlar edilmədiyi halda, əlavə vəsait tələb ediriksə, özümüz-özümüzü aldadırıq". **A.Rəhimzadə daha sonra əlavə etdi:** "Mədəniyyətə 8 milyon dotasiya ayrıldığı halda, Azərbaycanın bütün əhalisini əhatə edən yerli özünüidarə orqanlarına 5,2 milyon vəsait verilir. Bu, çox azdır. 2014-cü ildə dotasiya ilə birgə subvensiyaların da verilməsi qərara alındı. 2015-ci ildə verildi, bu il yenə də büdcədən çıxarıldı. Başa düşürəm, vəziyyət çətindir, amma heç olmasa, kənd bələdiyyələrinə kiçik yardımlar edək. Bu il 70-ə yaxın kənd bələdiyyəsi tərəfindən layihələr təqdim olunub, biri də qəbul olunmayıb. Nəyə görə? Heç olmasa, büdcədə yazın subvensiya, qarşısına da "0" yazın. Bu da yazılmayıb. Mən xahiş edirəm, bu məsələlərə diqqət yetirin".

**Gənclər və idman komitəsinin sədri Fuad Muradov** 33 rayonun dotasiyadan məhrum edilməsinə toxundu: "Mən bilmək istəyirəm ki, bizim cəbhə bölgəsində olan rayonlarlımızda vəziyyət necədir? Çünki hər zaman mənfur ermənilər tərəfindən təzyiqlər var. Bizim müdafiə sahəsinə ayrılan xərclər də azalmayıb və təbii ki, azala da bilməz". F.Muradov gənclərə və idman sahəsinə ayrılan vəsaitlə bağlı danışarkən deyib ki, "gənclərə qoyulan sərmayə digər sahələrə nisbətən daha çox vacibdir". **Komitə sədri qiymət artımından da bəhs etdi:** "Əgər həmin qurumlar yeni bir iş üsuluna keçəcəklərsə, qiymət artımı məqbuldur. Mütləq şəkildə islahatlara getməlidirlər. Bu şirkətlərdə islahatlara gedilməsə, onlar özlərinin maliyyə vəziyyətini düzəltməsələr, bu çətinliklər növbəti illərdə də qalacaq".

**Beynəlxalq əlaqələr və parlamentlərarası münasibətlər komitəsinin sədri Səməd Seyidov** xaricdəki səfirlik və konsulluqların dövlət vəsaitlərinin səmərəli istifadə etməsinin zəruriliyini vurğuladı: "Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin saxlanması ilə əlaqədar maliyyə ötən illə müqayisədə artırılıb. Lakin bu gün daha çox keyfiyyət, səmərəli iş, nəticə özünü göstərməlidir. Cənab prezidentin xarici siyasət sahəsində ortaya qoyduğu iradə, atdığı addımlar həm XİN, həm də səfirliklər üçün konkret nümunə olmalıdır".

**Müzakirələr zamanı çıxış edən deputatlar xalqı narahat edən məsələlərdən bəhs etdilər.**

**"Reallıqda bir çox faktlar var ki, bu, bizdə narahatlıq doğrurur. Kənd təsərrüfatına lizinq yolu ilə 35 milyon manat ayrılması nəzərdə tutulub. Bununla demək olar ki, heç nə etmək mümkün deyil"-deyə deputat Fəzail Ağamalı bildirdi. Deputat enerjidaşıyıcılarının qiymətinin artmasından da bəhs edib və Tarif Şurasının son qərarına yenidən baxılmasını zəruri saydı:** "Tarif Şurasının qəbul etdiyi qərarlarla ölkə prezidentinin həyata keçirdiyi siyasətdə bir uyğunsuzluq var və bu, nəzərə alınmalıdır. Sahibkar ayda 25 min manat qazpulu ödəyirdisə, bundan sonra 50 min manat olacaq. Nəzərə almalıyıq ki, istixanalara güzəşt yoxdur, avadanlıqlar xaricdən alınır. 7 ay ərzində tərəvəz məhsullarının istehsalında ciddi problemlər olacaq. Bu aylarda isə Azərbaycana xaricdən tərəvəz ixracı nəticəsində külli miqdarda valyuta gəlirdi. Heç olmasa, vətəndaşlara ayrılan kvota artırılsın. Məsələn, işığa 250 kilovat/saat əvəzinə, 500 kv, qaz üçün limit 1500-dən 3000 kuba qaldırılsın. Kənd rayonlarının bir çoxunda insanlar "ceyran peçi" ilə özlərini soyuqdan qoruyurlar, bu da qaz sərfiyyatını artırır. Verilən kvota qətiyyən buna bəs etməyəcək. Bakıda və digər yerlərdə vahid istilik sistemi olmadığına görə bu problem var. Ona görə də Tarif Şurası bu kvotanı artırsa, çox yaxşı olar". F.Ağamalı sahibkarlığa dəstək verilməməsinə də etirazını bildirdi: "Əgər sahibkarlığa yardım fonduna vəsait ayrılmayıbsa, banklar da iflic haldadırsa, onda sahibkarlıq necə inkişaf edəcək?"

**Deputat Qüdrət Həsənquliyev** də narahatlığını gizlətmədi: "Mən builki büdcə müzakirələrinə ürək ağrısı ilə qatılıram. Çünki bizim 25 milyard dollarlıq büdcəmiz bu il faktiki olaraq üç dəfə azalıb". O xatırlatdı ki, ötən illərdəki büdcə müzakirələrində o və bəzi deputat həmkarları daima Azərbaycan iqtisadiyyatının neftdən asılılığına diqət çəkib, hökuməti tədbirlər görməyə çağırıb: "Amma bizə deyirdilər ki, hər şey əladır, gözəldir. Sevinc xanım *(iqtisadi inkişaf nazirinin müavini-E.P.)* o vaxt proqnozlar verməli idi ki, neftin qiyməti aşağı düşsə, bizi nə gözləyəcək. 10 milyonluq ölkə üçün 9 milyonluq büdcə çox kiçik rəqəmdir. Baltikyanı ölkələrin hər birində 2-3 milyon əhali var, amma 9 milyard avroluq büdcələrə sahibdirlər. Bu müqayisə çox şey deyir". **Q.Həsənquliyev müəllimlərin və həkimlərin əməkhaqqının artırılmasını təklif etdi:** "Pensiyaları ən azı iki dəfə artırmaq lazımdır. Ön xətdəki hərbçilərin maaşını da artırmalıyıq". O, həmçinin bildirdi ki, QHT-lərin xaricdən qrant alması sadələşdirilməldir: "Bu, bizim ölkənin imicinə də müsbət təsir edər, həmçinin bu sektorun inkişafına təkan verər". Deputat bu yaxınlarda Füzulidən olan qaçqın ailəsinin yanaraq məhv olmasına diqqət çəkib: "Mən o xəbərə baxanda ürəyim parçalandı. Qaçqınların və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdılması lazımdır. 2017-ci ildə idman obyektlərinin tikintisinə 330 milyon, qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına isə cəmi 90 milyon vəsait ayrılıb. Bu ölkə üçün prioritet idman obyektlərinin tikilməsidir, yoxsa qaçqın və məcburi köçkünlərin normal mənzillə təmin ediməsi? Əgər dövlət öhdəsindən gələ bilmirsə, torpaq sahələri ayrılsın və güzəştli şərtlərlə şirkətlərə şərait yaradılsın". Deputat ardınca "dövlət qurumlarını 30 fazi ixtisar etmək lazımdır ki, məmurlar normal maaş alsınlar" - deyə, əlavə etdi.

**Q.Həsənquliyev maliyyə nazirinə müraciət etdi:** "Samir müəllim, sizə təşəkkür edirəm, gec də olsa, Beynəlxalq Bankdakı talanın qarşısının alınmasında xidmətiniz olub. Orada builki dövlət büdcəsindən artıq, 10 milyard vəsait talan olunub". Deputat sahibkarlığa dəstək verilməməsinə də etiraz etdi: "Sahibkarlığa Yardım Fonduna vəsait ayırmırıq, banklar kredit vermirlər, manat da üzür. Sahibkar bilməlidir ki, manatın kursu necə olacaq. Əks təqdirdə o, vəsait xərcləməyəcək". Deputat hökuməti xaricdəki vəsaitləri ölkəyə gətirməyə çağırdı: "Serbiyaya 350 milyon vəsaiti 15 illiyinə 4 faizlə veririk. Amma Azərbaycan Dəmir Yolları kredit axtarır. Mənim məlumatıma görə, həmin vəsaitlər 0,89 faiz gəlir gətirir. Gətirin 4 faizlə yerli banklarda saxlayın və vəsaitlər də ölkənin inkişafına yönəldilsin. Sabah Cavid Qurbanov gedib dəmir yolu üçün kredit götürsə, ən azı 7 faizlə alacaq". Deputat ardınca iri dövlət şirkətlərini özəlləşdirməyə çağırdı: "Azərsu, Azəriqaz, Azəişıq özəlləşdirilməsə, vəziyyət dəyilməyəcək".

**Deputat Cavanşir Feyziyev** bildirdi ki, büdcə layihəsində bir sıra dövlət müəssisələrindən daxilolmaların həcmi 5-6 milyon manat civarında göstərilib ki, bu da yetərincə aşağı göstəricidir: "Elə kiçik firmalar var ki, illik gəliri 5-6 milyon manat civarındadır. Əgər bu dövlət müəssisələri belə az gəlir gətirirsə, onlar mütləq özəlləşməyə çıxarılmalı və daha effektli idarəetməyə nail olunmalıdır. Bununla həm də büdcə gəlirlərinə qənaət etmiş olarıq". C.Feyziyev əlavə etdi ki, hökumət kəndlinin özü-özünü dolandırmasına şərait yaratmalıdır: "Bunun üçün ilk olaraq kəndli üçün infrastruktur şəraiti yaxşılaşdırmaq lazımdır. Onu elektrik enerji, yanacaq və su ilə təmin etməlidir. Əgər belə olarsa, o zaman kəndlinin ünvanlı sosial yardıma da ehtiyacı qalmayacaq".

**Deputat Tahir Kərimli** təklif etdi ki, kənd təsərrüfatını doludan və güclü yağışdan qorumaq üçün doludağıdan qurğular bərpa olunsun. Onun sözlərinə görə, son illərdə yay aylarında güclü dolu və yağışlar kənd təsərrüfatını ciddi ziyan vurur və bu ziyanın həcmi on milyonlarla manatla ölçülür: "Elə mən özüm Qarabağ hadisələri başlayanda və ordumuzun olmadığı dönəmdə 17 belə qurğunu Cəbrayıl rayonuna apardım. Apardım ki, bu qurğular vasitəsi ilə ermənilərin hücumundan müdafiə olunaq. Amma sonradan bu qurğular necə oldu, nə məqsədlə istifadə olundu bilinmədi. Ancaq onlar rayonlarda kənd təsərrüfatına dəyən ziyanın qarşısının alınmasına böyük işlər görürdü. Odur ki, hökumətdən xahiş edirəm bu məsləyə baxsın".

**İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova** dedi ki, sənədsiz ev sahibi olan vətəndaşların hüquqları təmin edilməlidir: "Bununla bağlı qanun layihəsi qəbul edilməlidir. Bu cür evlərin sayı rəsmi şəkildə 500 mindir. Onun sözlərinə görə, bu problemin həll edilməsi nəticəsində yığılan vergi və dövlət rüsumları hesabına büdcəyə əlavə vəsaitlər gətirə bilər".

**E.Süleymanova son vaxtlar ciddi müzakirə olunan bir problemə də toxundu:** "Bundan başqa ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə həlak olan hərbi qulluçuların ailə üzvlərinə və əlil olan şəxslərə sığorta məbləğinin ödənilməsi və həmin ödənişlərin qısa müddətdə müəyyən edilməsi ilə bağlı problemlər var. Onlar da həllini tapsa yaxşı olar".

**Maliyyə naziri Samir Şərifov** səslənən fikirlərə münasibət bildirərkən qaz və elektrik enerjisi üçün güzəştli kvotanın artırılması ilə bağlı təklifi mümkün saymadı.

"İmkanlı şəxslər limitdən artıq qaz və elektrik enerjisi istehlakına görə yeni tariflər üzrə ödəniş etməlidir. Əhali arasında imkanlı adamlar da var. Kvota artırılsa, belə çıxır ki, həmin adamlar da aşağı qiymətlərdən də istifadə edəcək"-deyə, nazir bildirdi. S.Şərifov özəlləşdirmə ilə bağlı təklifə reaksiyasında mənzil-kommunal sektorunun özəlləşdirilməsinin mümkün olduğunu bildirdi: "Hazırda özəlləşmə proqamı hazırlanmır. Geniş özəlləşməyə hazırlıq görülür. Ziddiyyətli məqamlar da var. Ona görə də bu məsələyə hökumət tərəfindən baxılır". S.Şərifov əlavə etdi ki, rayonlara ayrılan dotasiyaların bölünməsi məsələsinə baxıla bilər.

**Sonda Bahar Muradova dedi ki, büdcədə nəzərdə tutulan vəsaitlər çox olanda işi ona uyğun qurublar:** "Az olanda da buna uyğun qurmalıyıq". Bununla da dövlət büdcəsinin layihəsinin müzakirəsi başa çatdı. Deputatlar gələn ilin dövlət büdcəsi layihəsini Milli Məclisin 6,7 və 8 dekabrda baş tutacaq plenar iclaslarına tövsiyə olunmasına razılıq verdilər.

❑ **Elşad PAŞASOY**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016



# Suriya müxalifəti Ankarada Rusiya rəsmiləri ilə danışıqlar aparır

## Rusiya və Türkiyə rəsmiləri danışıqları təsdiqləyib, müzakirələr Vaşinqtondan xəbərsiz aparılır, ortada hansı uzlaşma ola bilər?

**Suriya müxalifəti təmsilçiləri Türkiyənin vasitəçiliyi ilə Ankarada Rusiya diplomatları ilə danışıqlar aparır. Bu barədə Britaniyanın "Financial Times" xəbər yayıb.**

Qəzetə bu barədə açıqlama verən təmsilçi deyib ki, danışıqlarda Vaşinqton nümayəndəsinin iştirakı olmadan qapalı aparılır, ABŞ-aheç bir bilgi verilməyib. Yeri gəlmişkən qeyd edək ki, dekabrın 1-də Rusiya XİN rəhbəri Sergey Lavrov Türkiyəyə səfər edərək bir gün sonra həmkarı Çavuşoğlu ilə görüşüb. İki nazirin danışıqlarında əsas mövzulardan birinin Suriya olduğu qeyd edilir. Müxalif təmsilçisi Əli Şeyx Ömər qəzetə deyib ki, müzakirələr birbaşa Rusiya ilə aparılır, çünki Bəşər Əsəd Rusiyanın bir əyalət qubernatoru kimidir.

Rusiya XİN sözçüsü Mariya Zaxarova isə deyib ki, bu müzakirələr xeyli vaxtdır aparılır.

Eyni xəbəri bu gün "Əl-Cəzirə" telekanalı da Suriya müxalifətinə istinadən yayıb. Mənbə bildirib ki, görüşlər Ankaranın vasitəçiliyi ilə aparılır, hazırda əsas müzakirə mövzusunun Hələbdəki durumdur.

İki gün öncə isə gün Ankarada Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Suriya müxalifətinin əsas koalisiyalarından biri olan Ali Müzakirə Heyətinin koordinatoru Riyad Hicabı qəbul edib.

Rusiyanın müxalifətlə danışıqlar aparmasını xarici işlər naziri Sergey Lavrov da təsdiqləyib. Lavrov deyib ki, Rusiya həm ölkə xaricində olan müxaliflər, həm də Suriyada olan müxalifət təmsilçiləri ilə danışıqlar aparır. Bütün müxalif qüvvələrlə danışıqlar aparmaqda hansısa maneənin olmadığını deyən Lavrov Türkiyənin də vasitəçilik etdiyi danışıqların davam etdiyini qeyd edib.

Çavuşoğlu isə deyib ki, danışıqlar təklifini hələ avqust ayında Rusiya tərəfinə verib. Onun sözlərinə görə, Suriyada davamlı sülhün yaranması üçün bütün tərəflərin iştirak etdiyi iştirak etdiyi bir anlaşma olmalıdır.

Qeyd edək ki, son günlərdə Suriya hökumət qüvvələri Hələbdə hücumları yenidən başladıb. Rusiya aviasiyasının dəstək verdiyi əməliyyat nəticəsində silahlı dəstələrin nəzarətində olan şərqi Hələbin 40 faiz ərazisi hökumət qüvvələri tərəfindən azad edilib. Hələbin hökumətin nəzarətinə keçməsi Suriyanın şimalında vəziyyətin dəyişməsi, ümumiyyətlə, Suriya münaqişəsinin taleyində dönüş ola bilər. Çünki Hələb həm böyük şəhər olmaqla yanaşı, Suriyanın şimalında əsas yolların üzərində yerləşən strateji nöqtədir.

Xatırladaq ki, Hələbin şərqi 2012-ci ildən müxaliflərin əlinə keçib və o zamandan bu yana şəhərin əsas hissəsinə silahlılar nəzarət edib. Yalnız 2015-ci ilin sentyabrından Suriyada hərbi əməliyyatlara başlayan Rusiyanın güclü hava dəstəyindən sonra hökumət qüvvələri fəallaşıb və tədricən Hələbin məhəllələrini geri almağa başlayıblar. Hazırda Hələbin şərqin silahlıların nəzarətində olan bölgələrdə 250 minə yaxın dinc sakinin olduğu güman edilir, təkcə son həftələrdə şərq məhəllələrindən 50 min sakin qaçıb.

Ancaq indi konkret situasiyada məlum olur ki, Hələb mövzusunda, deməli həm də münaqişə ilə bağlı müxaliflərlə Rusiya arasında danışıqlar var. Doğrudur, müxaliflər də etiraf edib ki, ruslarla danışıqlar heç də "rəvan getmir", ancaq buna baxmayaraq müzakirələr davam edir. Yəni hər iki tərəf danışıqlarda maraqlıdır. Və proses davam edir.

Rusiyanın müxaliflərlə danışıqlar cəhdi bir neçə il əvvəl də olub. Ancaq həmin vaxt danışıqlar yalnız ölkə içərisində qalan "vətənpərvər müxalifət"lə aparılmışdı. Bu qruplar isə çox da böyük və güclü deyil, yəni danışıqlar münaqişənin taleyinə elə də ciddi təsir etmədi, əvəzində Rusiya ordu göndərərək birbaşa münaqişəyə qatıldı.

İndi isə göründüyü kimi, silahlı müxalifət Rusiya ilə birbaşa danışıqlara başlayıb. Bu isə situasiyanın həm də siyasi-diplomatik cəbhədə dəyişdiyini göstərir. Bu xəbərdə diqqət çəkən iki mühüm detal var. Birincisi, danışıqların vasitəçisi Türkiyədir və görüşmələr Türkiyə ərazisində aparılır. Yəni bu o deməkdir ki, Türkiyə müxalifləri danışıqlara inandırıb və hansısa şəkildə danışıqlar və ortaq bir mövqe üzərində dayanmağa razılaşıblar; Türkiyənin də iştirak etdiyi yeni bir danışıqlar formatı ortaya çıxıb. Bu formatda uzun müddətdir danışıqlar gedir və nədənsə indi tərəflər bu formatda danışıqları açıqlamağa qərar veriblər.

İkinci mühüm detal isə odur ki, həm Ankara, həm Moskva, həm də müxaliflər müzakirələrdə Vaşinqtonun məlumatının olmasına ehtiyac duymayıblar. Bu isə Suriyanın şimalında kürdləri dəstəkləyən Vaşinqtona Ankaranın cavabı ola bilər.

**Eyni zamanda açıqlanan bu məlumat Suriya münaqişəsi ilə bağlı Ankara və Moskva arasında gizli anlaşmanın olması barədə iddiaları təsdiqləyir. Görünən odur ki, Rusiya və Türkiyə ortaq maraqların uzlaşdığı bir formatda Suriya münaqişəsinə son qoymaqla bağlı gizli danışıqlar aparır və bunun bir mərhələdə üzə çıxmasını istəməsələr də artıq proses açıqlanacaq mərhələyə çatıb.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Xərçəngin çarəsi tapıldımı...

## **Adil Qeybulla:** "Xərçəng hüceyrəsini olduğu yerdən xaric etmək hələ tam müalicə demək deyil"

**Rus professoru Mixail Yenikeyev xərçəng xəstəliyinin müalicəsini tapdığını iddia edib. Heyta.az saytı xarici mətbuata istinadən bildirib ki, professor xəstəyə əzab vermədən, lazımsız əməliyyatlar etmədən sağaltdığını deyib: "Yerli anesteziya altında və ümumiyyətlə bədxassəli şişi məhv edirik. Xərçəng dəhşətli xəstəlikdir. Belin aşağı hissəsinə iynə vururuq, şiş olan nahiyəni 40 dərəcədə xərçəng hüceyrələri dondururlur. Sonra isə heliumla bu donmuş şiş təbii bədən hərarətinə çatana qədər qızdırılır. Belə temperaturun dəyişimi ilə olan xərçəng hüceyrələri məhv olurlar".**



Professor qeyd edib ki, xəstə əməliyyatdan bir neçə saat sonra evə buraxıla bilər:

"Əlbəttə ki, biz ilk dəfə belə bir əməliyyat yerinə yetirəndə, xəstəni bir neçə gün stasionarda saxladılar, araşdırmalar, təhqiqatlar aparıldı.

Belə əməliyyatları müasir texnika və tibb elminin son nailiyyətləri sayəsində mümkün olub. Aydındır ki, belə cərrahi müdaxilələr hamıya uyğun gəlməyə bilər. Məsələn, kiməsə ümumi narkoz altında əməliyyat aparmaq təhlükəlidir".

Qeyd edək ki, mətbuatda yayılan bu məlumat ölkəmizdə böyük maraq doğurub. Məlumdur ki, son vaxtlar Azərbaycanda xərçəng xəstəliyi sürətlə artmağa başlayıb. Faciəvi xəstəlik artıq yeniyetmə və gənclər arasında da yayılmağa başlayıb. Bəs görəsən rusiyalı professorun donduraraq xərçəng hüceyrələrini məhv etdiyi barədə iddialar nə dərəcə doğru ola bilər?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla iddialara bu cür şərh bildirdi:**

"Xərçəng xəstəliyinin tam müalicəsindən söhbət gedə bilməz. İnsan orqanizmində hüceyrələr nəzarət altında böyüyür, çoxalır. Bu nəzarət sistemi pozulduqda və yaxud hüceyrələrin öz funksiyasını itirdikdə, strukturunu dəyişdikdə, bu halda nəzarət itir. Xərçəng şişinin ən əsas xüsusiyyəti də ondan ibarətdir ki, o, bədənin resurslarından istifadə edib yayılır. Xərçəng hüceyrəsini olduğu yerdən xaric etmək hələ tam müalicə demək deyil. Bu hüceyrələr başqa yerlərdə, infrastrukturlarda və sairə oturur və nə vaxtsa baş qaldırırlar. Ona görə də həm kimya terapiya şüa, həm də cərrahi müalicə əlaqə kimi aparılır. Orqanizmin dondurulması və bununla da xərçəng hüceyrələrin məhv olması ideyası əslində elə ideyadır. Xərçəng xəstəliyinin elə bir aqressiv formaları var ki, bədən hüceyrələri ola bilsin ki, dondan məhv olsun, amma xərçəng hüceyrələri yox. Bu da bir üsuldur və bununla bağlı müəyyən tədqiqat aparılır. Amma məsələnin tam həlli hələ ki, mümkün deyil. Xərçəng şişlərinin müalicəsi gələcəkdə həmin hüceyrələri bədəndə axtarıb tapa bilən bədənin özünə məxsus xüsusiyyətləri ola bilər. Yəni, gen o qədər güclü olmalıdır ki, müəyyən proqram üzrə o hüceyrələri məhv edə bilsin. Gələcək perspektiv bunun üzərindədir. Qalan bütün məsələlər bir yanaşı, kömək xarakteri daşıyır".

**Qeyd edək ki, statistik məlumatlara görə hər il təxminən 7 milyon insan xərçəng xəstəliyindən dünyasını dəyişir. Ekspertlər qeyd edir ki, bu cür sürətlə xərçəng xəstəliyi ürək xəstəliklərini də ötüb keçəcək. Beləliklə dünyada hər üç qadın və hər iki kişidən biri məhz xərçəng xəstəliyinə yaxalanacaq.**

❑ **Xalidə GƏRAY**

# Direktor teatrı "taxtabiti yuvası" adlandırdı, aləm qarışdı...

## "Niyə bir şey olmamış yazırsız ki, "AzDramada qalmaqal, qalmaqal..." Bu, nə deməkdir?"

**Xalq artisti, Akademik Milli Dram Teatrının direktoru Azər Paşa Nemətin teatrla bağlı səsləndirdiyi ifadələr qalmaqala səbəb olub. BakiPost.az-ın yaydığı məlumata görə, teatrın əməkdaşlarından birinin göndərdiyi səs yazısında direktorun teatrı "taxtabiti yuvası" adlandırdığı eşidilir.**



Azər Paşa Nemət

A.Nemət teatr əməkdaşlarından biri ilə söhbəti zamanı buraya könüllü gəlmədiyini də deyib: "Azərbaycanda bilirsiniz də, onsuz da qanan, qandıran yoxdur. Ona görə rəhbərlik bilir. Məni cənab prezident bura qoymasaydı, mən bu taxtabiti yuvasında nə gəzirdim?"

Qeyd edək ki, səs yazısı mətbuatda, sosial şəbəkələrdə müzakirə obyektinə çevrilib.

**Teatrdan Lent.az-a göndərilən məlumatda bildirilir ki, səs yazısı montaj edilib:** "Bu səs yazısının quraşdırılması, yayılması Akademik Milli Dram Teatrına, onun rəhbərliyinə qarşı qərəzdən irəli gəlir. İndi səs oxşatmaq, montaj etmək çətin məsələ deyil. Teatrın direktoru Azər Paşa Nemət kollektivə təqdim olunanda teatrın bütün kollektivinin ona əziz, doğma olduğunu deyib və əlavə edib ki, kollektivə hər zaman hörmət edib, bundan sonra da bu hörmət davam edəcək. Hazırda teatrımızda yeni səhnə əsərləri üzərində iş aparılır, premyeralara hazırlaşırıq. Kollektivin yaradıcı əhval-ruhiyyədə olduğu belə bir vaxtda bu cür səs yazısının quraşdırılması, montajı yaradıcı atmosferə xələl gətirməkdən başqa bir şey deyil və buna təəssüf edirik".

*Bəs, son vaxtlarda qalmaqalları cənginə alan, "taxtabiti yuvası" adlandırılan teatrda nələr baş verir? Azər Paşa Nemətin teatra bu cür münasibəti nədən irəli gələ bilər?*

Məsələyə aydınlıq gətirmək üçün **xalq artisti Azər Paşa Nemət**in şəxsi mövqeyini öyrənməyə çalışsaq da cəhdimiz boşa çıxdı.

**Teatrın əməkdaşı, xalq artisti Ramiz Məlik** isə olayla bağlı mövqeyini bu cür bildirdi: "Mən inanmıram ki, Azər müəllim belə bir şey desin. Həmin səs yazısı ilə də tanış deyiləm. Buna görə də heç nə deyə bilmirəm. Niyə bir şey olmamış yazırsız ki, "AzDramada qalmaqal, qalmaqal..." Bu, nə deməkdir?"

**Xalq artisti Bəsti Cəfərova** isə bu haqda danışmaq istəmədiyini bildirdi.

**Teatrşünas, professor Məryəm Əlizadə** də xalq artistinin teatr haqqında təhqiredici fikirlər söylədiyinə inanmadığını dedi: "İnanmıram ki, Azər Paşa müəllim "AzDrama"nı belə adlandırsın. Çünki Azər Paşa müəllim oradakı sənətkarların hər birinə çox hörmətlə yanaşır. Özü də çox peşəkar rejissorumuzdur. O, nəinki Azərbaycanda, həmçinin keçmiş SSRİ məkanında tanınmış rejissordur. Özü də sənətkar ailəsində anadan olub. Qətiyyən ondan belə şey gözləmək olmaz. Həyatda belə kəlmə işlətməz, bunu bilirəm.

Mətbuat xidmətinin olayla bağlı açıqlamasını oxudum, ordan da dedilər ki, bu səs yazısı montajdır... Bu söhbətlərə son qoymaq lazımdır, bais mövqeyində dayanıb işləmək, sənətlə məşğul olmaq lazımdır".

Xatırladaq ki, xalq artisti Azər Paşa Nemət bu ilin yanvarından Akademik Milli Dram Teatrının rəhbəri təyin olunub. Onun təyinatı ilə teatrda baş verən qalmaqalların səngiyəcəyi gözlənilsə də son aylarda qalmaqallar yenidən vüsət almağa başlayıb. Ən böyük qalmaqal isə görkəmli aktyor Fuad Poladovun teatrdan getməsi ilə bağlı oldu. Xalq artisti haqsızlıqla teatrdan çıxarılan aktyor Hikmət Rəhimova dəstək məqsədilə teatrı tərk etmişdi.

Daha sonra isə teatrın əməkdaşı Elşad Əliyev xəbərdarlıq edilmədən işdən çıxarıldığı üçün teatrı məhkəməyə verdiyini bildirdi. Daha bir qalmaqal isə xalq artisti Zemfira Nərimanovanın adı ilə bağlı oldu.

**Aktrisa publika.az saytına açıqlama verərək bildirmişdi ki, Azər Paşa Nemət teatra rəhbər təyin olunandan tamaşalarda ona rol vermir:** "Mən bir neçə dəfə ondan soruşmuşam, cavab verib ki, gözlə. Nə vaxta qədər gözləməliyəm. Mən də bəzi aktrisalar kimi onun otağından çıxmamalıyam? Gedib ağız açmalıyam ki, mənə rol ver? Soruşmalıyam ki, niyə məndən xoşun gəlmir? Artıq bezmişəm..."

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016

# Maşallah Əhmədova 9 il cəza istənildi - dələduzluğa görə



Dələduzluqda təqsirləndirilən tanınmış veteran futbolçu Maşallah Əhmədovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə prokuror M.Əhmədova cəza istəyib.

Prokuror M.Əhmədovun törətdiyi əməllərə görə 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmənin növbəti iclasında M.Əhmədov son söz deyəcək, onun vəkili isə müdafiə çıxışı edəcək.

Qeyd edək ki, M.Əhmədov Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib və sözünə əməl etməyib.

Əhmədov 1977-ci ildən "Neftçi" klubunda oynayıb. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.

❑ İlkin MURADOV


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## Bakıda təcili yardım maşını qəzaya uğradı: xəstə öldü

**Bakıda təcili yardım avtomobili qəzaya uğrayıb, xəstə ölüb. "Report"un xəbərinə görə, hadisə Suraxanı rayonu ərazisində, Hövsan yolunda baş verib.**

Belə ki, Suraxanı rayonu 11 saylı Təcili Yardım Stansiyasının 24 nömrəli "Təcili yardım" avtomobili çağırış əsasında Hövsan qəsəbəsi Koorporativ ev 14 ünvanından kəskin mədə ağrısı ilə 61 yaşlı Əliyev Faiq Qədir oğlunu xəstəxanaya çatdırmaq istəyib. Hövsan yolunda "Azsamand" markalı avtomobil qəfildən "Təcili yardım" maşınına çırpılıb. Əraziyə digər "Təcili yardım" avtomobili cəlb edilib. Lakin qəza nəticəsində yaralanan F.Əliyevin həyatını xilas etmək mümkün olmayıb. Onun yanındakı tibb bacısı isə qəza zamanı xəsarət alıb.

Faktla bağlı Suraxanı Rayon Polis İdarəsində cinayət işi başlanılıb.

## Rusiyada azərbaycanlı biznesmenə basqın

**Sankt-Peterburqun Primorsk rayonunda cinayətkarlar avtomobil mərkəzinin menecerindən 630 min rubl oğurlayıblar. Virtualaz.org bildirir ki, bu barədə Rusiya KİV-i xəbər yayıb.**

Məlumata əsasən 41 yaşlı azərbaycanlıya qarşı hücum axşam saatlarında, 22:15 radələrində Kolomyajsk prospektində, 20-ci binanın qarşısında baş verib.

Burada naməlum şəxslər həmyerlimizi döyərək içərisində 630 000 min rubl və pasport olan çantasını oğurlayıblar.

Həmyerlimiz müqavimət göstərmək istə sə də, basqın edənlər ona imkan verməyiblər. Nəticədə o, qapalı kəllə-beyin travması və sağ gözün kontuziyası diaqnozları ilə 17 saylı şəhər xəstəxanasına çatdırılıb.

Rusiya polisi hadisə yerindəki müşahidə kameralarının görüntülərini götürüb və faktla bağlı araşdırmalara başlayıb.



## Bakıda gözəllik salonunda qadınlar arasında dava düşdü

**Bakıda qadınlar arasında dava düşüb. "Report"un xəbərinə görə, hadisə paytaxtın Nərimanov rayonunda, metronun "Gənclik" stansiyasının yaxınlığında yerləşən qadın gözəllik salonlarından birində baş verib.**

Belə ki, həmin salona müştəri kimi gedən 1975-ci il təvəllüdlü Samirə Cəmil qızı Seçkin orada çalışan Gülnar adlı saç ustası tərəfindən döyüldüyü barədə Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsinə məlumat verib.

Faktla bağlı araşdırma aparılır.



## Aktrisa ATV-də yayımlanan serialı "mənasız yığnağı" adlandırdı

**Əməkdar artist Naibə Allahverdiyeva ATV-də yayımlanan seriala baxıb dəhşətə gəldiyini bildirib. Musavat.com bildirir ki, aktrisa bu barədə öz "facebook" səhifəsində status paylaşıb. Naibə Allahverdiyeva serialın adını çəkməsə də kollektivin işini, xüsusən də aktyorların geyimini kəskin tənqid edib:**

"Təsadüfən ATV kanalında yayımlanan bir seriala baxdım, dəhşətə gəldim. Bu qədər qeyri-professionallıq olar? Geyim üzrə rəssam yoxmu? Belə biabırçılıq olar?"

"Hadisə içi bahalı əşyalarla dolu olan villada baş verir. Ana rolunu (villanın sahibəsi) ifa edən aktrisanın qrimi, saç düzümü, əynindəki 3 manatlıq xalatı varlı qadını yox, xadiməni xatırladır. Hələ operator və rejissor işindən danışmağı lüzum bilmirəm, çünki bu faciədir! Məişət dilini seriallara gətirirlər, guya ki, bu danışıq dilidir. Başa düşmürlər ki, kinonun öz dili var. Seriallarda oynayan bəzi istedadlı aktyorlar da rejissor naşılığı üzündən pis vəziyyətə qalırlar. Gedin özünüzə başqa sənət tapın! "Bezdarnı" (mənasız) yığını..."

Qeyd edək ki, əməkdar artist Naibə Allahverdiyeva bu günlərdə müsavat.com-a müsahibə verərkən bildirmişdi ki, bilmədiyi səbəb ucbatından çəkildiyi serialdan uzaqlaşdırılıb, adını çəkmək istəmədiyi televiziya kanalında "qara siyahı"ya salınıb. Aktrisa olanlara görə sənətindən və ölkədən gedəcəyini açıqlamışdı.

❑ XALİDƏ



## Yağış, sulu qar, qar yağacaq

**Bakı və Abşeron yarımadasında dekabrın 3-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı, zəif duman olacağı ehtimalı var.**

Şimal-qərb küləyi gündüz cənub-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun yarımadada gecə 3-6° isti, gündüz 8-12° isti, Bakıda gecə 4-6° isti, gündüz 9-11° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 756 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək.

Nisbi rütubət gecə 80-90%, gündüz 65-75% təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə yağış, sulu qar, qar yağacağı, gündüz əksər rayonlarda əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1-6° isti, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacağı gözlənilir.

YENİ MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016

# Müasir texnologiyaların insan beyninə təsiri - xeyri zərərindən çox?

## Texnologiya inkişaf etdikcə beyindəki dəyişikliklər də artır; bəs balansı necə qorumalı...

**Son dövrlər texnologiyanın sürətlə inkişafı insanların həyatına ciddi təsir etməkdədir. Heç şübhəsiz, müasir dövrdə hər bir insanın sosial şəbəkələrdə hesabının olması, texnologiya ilə sıx təması onun sinir sisteminə də təsir edir. Mütəxəssislərə görə, bu aspektdən yanaşdıqda insanlar indi beyinlərini daha çox çalışdırırlar. Bəs bu faktor beyinə hansı təsirləri göstərir?**



Öncə bu yöndə kiçik bir araşdırmaya diqqət edək. Belə ki, beyinə daxil olan və çıxan sinir impulslarının sürəti saatda 274 kilometrə bərabərdir. Bu impulsların sürəti təxminən idman avtomobillərinin sürəti ilə müqayisə olunur. Beyinin tam fəaliyyəti üçün 10 voltluq lampa gücündə enerji tələb olunur. İnsan beyni hər hansı ensiklopediyadakı məlumatlardan 5 dəfə artığını yadda saxlamaq qabiliyyətinə malikdir.

Bu sahə üzrə araşdırma aparan şəxslər hesab edirlər ki, uzun müddət texnoloji alətlər istifadə etmənin beyinə zərər verdiyi qətiliklə doğrudur. Çünki bu, beyinin elektrik fəaliyyətini və ümumi işini pozur.

Bildirilir ki, müasir texnologiyaların ətraf mühitə yaydığı şüalar beyin hüceyrələrinə zərər verir. Həmin zərər nəticəsində bir çox xəstəlik ortaya çıxa və ya daha sonrakı illərdə ortaya çıxa bilən xəstəliklər daha erkən dövrdə görülə bilər. Misal üçün, epilepsiya xəstəliyi beynin elektrik fəaliyyətinin pozulmasından yaranan mərəz sayılır.

Xarici mənbələrə görə, texnologiyanın beyinə əsasən aşağıdakı təsirləri mövcuddur: araşdırmalar göstərir ki web saytlarını ziyarət edən, video oyunları oynayan kəslər bunları etməyənlərlə müqayisədə vizual məzmunu və simvolları daha tez qavrayırlar. Bu, texnologiyanın beyinə olan faydasıdır. Texnologiya sayəsində davamlı olaraq elektron məktublar, bloq-yazıları və mesajlar almamız isə araşdırmalara görə, bizə mənfi təsir edən amildir. Belə ki, Qərb psixoloqlarına görə, mesajlar insanı çox tez həyəcanlandırır, ona psixoloji təsir edir. İnsan təcili olaraq bu mesajlara cavab vermək istəyir. Bu da beyinə heç də müsbət təsir etmir.

İnternetdən çox istifadə edənlərə bir müddət sonra uzun mətnləri və hətta qəzetdən xəbərləri oxumağın belə getdikcə çətinləşdiyi iddia olunur. Bildirilir ki, texnoloji alətlər sayəsində əsasən kiçik məlumatlar almağa öyrəşirik.

"The Guardian" qəzetində nəşr olunan bir məqaləyə görə, texnoloji alətlər sinirlərimizə də zərər verir. Bunun nəticəsi olaraq biz nə qədər çox oxusaq da az şey xatırlamağa başlayırıq.

Bildirilir ki, başda internet olmaq üzrə, cib telefonları və digər texnoloji alətlər istifadə etməklə gün ərzində daha çox informasiyaya məruz qalırıq. Bu isə diqqətin çox tez dağılmasına səbəb olur.

Texnologiyaya bağlılıq həm də insanları cəmiyyətdən, insanlardan uzaqlaşdırır. 1960-cı illərlə 2000-ci illər arasında bir müqayisə aparılaraq bildirilir ki, əgər əvvəllər insanlar televiziya qarşısında ortalama 5 saat vaxt keçirdilərsə, hazırda insanların texnologiya ilə əlaqəsi 12 saatadır. Mütəxəssislər hesab edirlər ki, azyaşlı uşaqların texnologiya ilə sıx bağlı olması, onların beyinlərinin inkişafına mane olur.

Texnologiya sayəsində beynimizin fiziki quruluşu hər keçən il dəyişir. Araşdırmaçılar onu da bildirirlər ki, bu faktor zamanla duyğularımıza və insani keyfiyyətlərimizə mənfi təsir göstərir. Amerikanın insan beyni üzərində araşdırmalar aparan elm adamlarından Gary Small və qrupu, müasir texnologiyanın gənc beyinlərə necə təsir etdiyini araşdırıb. Bəlli olub ki, müasir texnologiya, bir tərəfdən öyrənməyi sürətləndirib yaradıcılığı artırarkən, başqa tərəfdən də ictimai izolyasiya yaradaraq, internet asılılığına gətirib çıxarır. Beyin təkamülünün yaşandığı dövrümüzdə uğur qazanmaq üçün mümkün maneələrdən qaçmaq və bu təkamülə uyğunlaşmanı təmin etmək lazımdır. Amerika araşdırmaçıları bildirirlər ki, günümüzdə texnoloji inkişafla bərabər, beynimiz də daha əvvəl heç olmadığı bir sürətlə təkamül keçirir.

**İnternet üzərindən xəbərləşmənin isə insanların üz-üzə ünsiyyət bacarıqlarını itirməsinə səbəb olduğu qeyd olunur. Standford Universitetinin apardığı araşdırmaya görə, kompüter qarşısında xərclədiyimiz hər saat başqa insanlarla üz-üzə keçirdiyimiz qarşılıqlı zamanı otuz dəqiqə azaldır.**

❑ **Əli RAİS**

# Bananda QİÇS xəstəliyi varmı...



## Eyyub Hüseynov: "Yayılan məlumatlar həqiqətə uyğun deyil"

## Rövşən Ziya: "Bananda ləkələrin yaranması saxlanma şəraitinin düzgün olmamasıdır"

**Sosial şəbəkələrdə bananın xəstəlik yaydığına dair xəbərlər yayılıb. Bananda qeyri-adi qırmızı ləkələr meyvənin daxilinə yeridilmiş qan kimi qələmə verilir. Bu hallar insanlar arasında ciddi narahatlığa səbəb olub.**

Cebhe.info-ya daxil olan şikayətə görə, ana övladına banan verdikdən sonra dəhşətli mənzərə ilə rastlaşıb: "Öncədən elə bildik ki, uşağın ağzı qanayıb. Sonra baxıb gördüm ki, bananın içində qan var".

Uşağın yaxınlarının verdiyi məlumata görə, artıq analiz verilib, nəticə gözlənilir.

*Bəs bu nə dərəcədə realdır? Doğrudan da banana QİÇS xəstəliyi yayan qan vurula bilərmi?*

Bir neçə banan satılan yerə baş çəkib həm satıcıların, həm də alıcıların fikrini aldıq. Satıcılar yayılan məlumatlara elə də inanmadıqlarını bildirdilər. Satıcı Ənvər Quliyev banan alanlardan hələ ki bir şikayət eşitmədiklərini bildirdi: "Banan çox satılır. Alıcılardan gəlib hansısa deməyib ki, sizdən aldığım bananın içindən nəsə çıxıb".

**"Rahat" market**də banan alıcısı Aynur Əliyeva da banana bağlı çıxan söhbətləri internetdə oxuduğunu dedi: "Elə xəbərləri mən də oxudum. Əlbəttə ki, bu məni narahat etdi. Mənim uşaqlarım banan xoşlayır və mən həmişə alıram. Artıq bu xəbərlərdən sonra almağa tərəddüd edirəm".

Söhbətə qatılan digər alıcı isə bunun şayiə olduğunu bildirdi: "Mən inanmıram. Bu bir qrup işbazların uydurduğu bir nağıldır".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bunun dezoinformasiya olduğunu dedi: "Mənə bir banan göstərdilər. Xarab olub içi qırmızı rəngə çevrilib. Bu camaatda şübhə yaradıb. Ancaq yayılan bu məlumatlar həqiqətə uyğun deyil. Düzdür, mən bananın yetişdiyi Cənubi Afrikada olmuşam. Ticarət naziri çıxıb dedi ki, burada hər 4 adamdan biri SPİD-dir. Ancaq bananla SPİD xəstəliyinin yayılması həqiqətə uyğun deyil".

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarət Xidmətinin mətbuat katibi Rövşən Ziya** ləkələrin yaranmasına səbəbin bananın düzgün saxlanmaması ilə əlaqədar olduğunu dedi: "AİDS/SPİD və qan xəstəliklərinin virusunun iynə vasitəsi ilə banan meyvəsinin tərkibinə yeridilməsi ilə bağlı səsləndirilən fikirlər həqiqəti əks etdirmir. Bu virusun müəyyən vasitələrlə meyvənin tərkibinə yeridilməsi faktı mövcud deyil. Məlum olduğu kimi, QİÇS xəstəliyi İİV (İnsanda İmmunçatışmazlığı Virusu) infeksiyası fonunda inkişaf edən və CD4+ limfositlərinin (leykosit növü) azalması ilə xarakterizə olunan, mahiyyəti etibarilə İİV infeksiyasının son mərhələsidir. Bu virus qan yolu ilə, eləcə də HIV/AİDS-li adamın qan, qan məhsulları, toxuması və ya orqanlarının nəqli və s. vasitələrlə yayılır. Banan meyvəsinin tərkibində ləkələrin yaranmasının əsas səbəbi, saxlanma şəraitinin düzgün olmaması ilə əlaqədardır. Belə ki, banan və digər meyvələr istifadəyə yararsız və müasir texnoloji avadanlıqlarla təchiz olunmayan anbarlarda uzun müddət saxlanıldıqda, meyvənin tərkibində göbələk və s. xəstəliklərin təzahürləri meydana çıxır ki, bu da istehlakçılarda narahatçılığın yaranmasına səbəb olur".

**R.Ziya bununla bağlı müvafiq laboratoriyalarda analizlər aparıldığını bildirdi:** "Qeyd edək ki, ölkəyə idxal olunan banan və digər meyvə məhsullarından götürülən nümunələr üzərində Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin müvafiq laboratoriyalarında analizlər aparılır. Əgər analizlər zamanı meyvənin tərkibində karantin tətbiq olunan zərərvericilər aşkar olunmazsa, və ya kimyəvi maddələrin qalıq miqdarı normadan artıq olmazsa, idxalına icazə verilir. Əks halda, meyvənin ölkəyə daxil olmasının və istehlakçılara çatdırılmasının qarşısı alınır".

Xatırladaq ki, banan əsasən tropik ölkələrdə yetişir. Bananı yaşıl halda yığırlar, çatdırılma müddətində yetişir. Çox vaxt bananı kal halda satırlar və yetişməsi üçün otaq temperaturunda saxlanılır. Bananın 300-ə yaxın növü olsa da, istehlak baxımından iki növə ayrılır: şirin və nişastalı. Birinci çiy halda yeyilir, yetərincə bərk olan ikincisi isə tamına görə kartofu xatırladır. O qızardılır, pörtlədilir, balıq və ət xörəklərində istifadə edilir. Bir çox ölkələrdə banan yarpağından boşqab kimi istifadə olunur. Bananın tərkibində 14-22 faiz şəkər, 5-8 faiz nişasta, 1,5 faizədək protein olur. Bananın tərkibində çoxlu karbol olduğundan adamı tez doydurur. Lətində orqanizmin müdafiə funksiyalarını möhkəmlədən, soyuqlamanın qarşısını alan xeyli miqdarda askorbin turşusu var. Banan C, A, B vitaminləri və maqneziumla zəngindir. Onlar maddələr mübadiləsini yaxşılaşdırır, bədəndəki şlak və mayeni xaric edir, qandakı xolesterinin səviyyəsini aşağı salır, immuniteti bərpa edir, əsəbləri sakitləşdirir.

Amerika Kimya Cəmiyyəti mütəxəssisləri hesab edirlər ki, banan qabığının suyundan ağır metallardan təmizləmədə istifadə etmək olar. Alimlərin təqdim etdiyi hesabatda deyilir ki, doğranılmış banan qabığı suyun təmizlənməsi üçün nəzərdə tutulan digər müasir materiallara nisbətən daha səmərəlidir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 269 (6590) 3 dekabr 2016



# Oğurluq edən gəncin cəzası... anasına kömək etmək olacaq

Böyük Britaniya məhkəməsi 18 yaşlı bir oğlanı həbsə göndərmək əvəzinə qəribə cəza verib. O, bundan sonra anasına ev işlərində kömək etməyə təhkim olunub. Belə ki, Jeymi Frum adlı gənc gündəlik olaraq yatağı yığışdıracaq, evdə səliqə-sahman yaradacaq, paltarları yuyacaq. Oğlanın günahı isə oğurluq olub. Onun anası məhkəmədə bildirib ki, bu qərardan olduqca razıdır. Çünki Frumun türmədə yatmasındansa evdə ona köməklik etməsi yaxşıdır. Gənc özü isə bu qərarı sərt adlandırıb. Onun dediyinə görə, bu hadisədən əvvəl də anasına ev işlərində kömək edirmiş. Oğru insaf naminə qeyd edib ki, əslində hakim onu dəmir barmaqlıqlar arasına göndərməli idi. Parlament üzvü, deputatı David Davis isə qərarı tənqid edərək bunu rüsvayçılıq adlandırıb: "Bu quldur həbsxanada olmalıdır".

"The Sun" qəzeti isə yazıb ki, məhkəmə ancaq bir halda bu gənci həbsxanaya göndərə bilər. Anası onun ev işlərinə kömək etmədiyini dediyi halda, 18 yaşlı oğlanı həbsxana divarları "salamlayacaq".

# Sürpriz etmək istədi, ağaca ilişib qaldı

Çinin İçan şəhər sakini sevdiyi qadına ilginc bir evlilik təklifi etmək istəsə də, uğursuzluğa düçar olub. Lenta.ru saytı yazıb ki, adı açıqlanmayan çinli gənc üzərində "Qou Xunyun, mənimlə evlən" sözləri yazılmış paraşütlə sevdiyinin yanına düşməli, ona güllər təqdim etməli idi. Amma külək romantik çinlini pərt edib və paraşüt ağaca ilişib. Gənc adam özbaşına yerə düşə bilməyib, xilasedicilərin hadisə yerinə gəlməsi isə bir saat çəkib. Sonuncular gələn kimi çinlini ağacdan endiriblər və o, pərt olmadan planının qalan hissəsini həyata keçirib: sevgilisinin yanına düşüb, dizi üstə çöküb və ona gül buketi təqdim edib. Amma şanssız çinli bu məqamda da pis vəziyyətə düşüb. Çünki qız ona heç bir cavab verməyib, sadəcə üzünü çevirərək gedib. Hadisə internetdə də ciddi müzakirəyə səbəb olub. Bir çox sosial şəbəkə istifadəçiləri qızı müdafiə ediblər. Onlar deyiblər ki, bu cür təkliflər publika üçün, şou məqsədilə edilməməli, romantik atmosferdə həyata keçirilməlidir.



# Qonşusuna açıqca göndərdi, həbs olundu

Minnesota ştatı məhkəməsi Şaron Lavon Russo adlı qadını qonşusuna açıqca göndərdiyi üçün həbs edib. İkigünlük həbs cəzasının səbəbi isə qadının daha öncə ona edilən xəbərdarlığa əhəmiyyət verməməsi olub. Məhkəmə onun qonşularına qarşı hər hansı hərəkət etməsini yasaqlamışdı. Sözügedən yasaq qərarı bir neçə il öncə verilib. Həmin vaxt qonşuları ilə tez-tez dalaşan qadın barədə məhkəmə ilginc qərar çıxarmışdı: qonşularla hər hansı ünsiyyət həbslə nəticələnəcək.

Aralarında soyuq münasibətlər olmasına baxmayaraq, Şaron Lavon qonşusuna açıqca göndərdiyi üçün məhkəmə qarşısına çıxıb. Qonşusu iddia edib ki, düşmən münasibətlərdə olduğu Şarondan təbrik açıqcası almaq onu qorxudub. Müstəntiq Şaronun 90 gün müddətinə həbsini istəyib. Hakim Qalen Vaa isə insanlar arasındakı sadə olmayan münasibətləri də nəzərə alaraq, bu həbsin 2 günə qədər azaldılması barədə qərar verib.






# Səhər yeməyindən imtina etmək... kökəldir

Səhər yeməyi vərdişi bir çox insanlarda yoxdur. Çox adam günə bir fincan qəhvə ilə start verməyə çalışır. Halbuki sadəcə qəhvə içmək yuxunu açsa da, vücuda enerji və qidanı təmin etmir. Üstəlik qəhvə, daha sonra qəbul edilən bəzi qidaların vücudda istifadə olunmasına mane olur. Beləliklə, insan bir müddətdən sonra özünü yorğun hiss etməyə başlayır. Bundan başqa qəhvə riyazi və məntiqi qabiliyyətlərə də mənfi təsir edir. Gərgin bir günə başlayarkən: pendir, süd, yumurta kimi tərkibində protein olan qidalardan ibarət bir səhər yeməyi, şirin çay və küncütlü kömbədən ibarət səhər yeməyi ilə müqayisədə daha yaxşı nəticə alınmasını təmin edir.






**QOÇ** - Həddindən ziyadə səmərəli bir gün yaşayacaqsınız. Qonşu və qohumlarla təmkinli və ədalətli davranın. Sevindirici xəbərlər, uğurlu hadisələr ovqatınızı yüksəldəcək.



**BUĞA** - Təxminən saat 13-dən etibarən ulduzlar qarşınızda bir neçə şans yaradacaq. Ələlxüsus da gələcək perspektivlər üçün bu fürsətin əhəmiyyəti böyük olacaq. O vaxta qədərsə gözüaçıq olun.



**ƏKİZLƏR** - Səhhətinizlə bağlı problem yoxdursa, uğurlu gün hesab etmək olar. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etsəniz, planlarınızın əksəriyyəti reallaşacaq. Tanrını yaddan çıxarmayın.



**XƏRÇƏNG** - Bir qədər mistik təqvimdir. Amma əminik ki, siz belə bir gündə falçı və ya cadugər yanına yox, müqəddəs ziyarətgahlara, ibadət yerlərinə baş çəkəcəksiniz. Pulla bağlı ehtiyatlı olun.



**ŞİR** - Bir çox bürclər kimi siz də əsas vaxtınızı sevgiyə həsr edin. Çünki yeganə uğurunuz bu sahədə olacaq. Digər məsələlərdə isə qalmaqal gözlənilir. Vəzifəli adamlarla ehtiyatlı davranın.



**QIZ** - Kifayət qədər uğurlu gündür. Hətta havaların dəyişkənliyi də ovqatınıza mənfi təsir göstərməyəcək. Məhəbbət amilinə daha çox diqqət yetirin, işgüzar sövdələşmələri sürətləndirin.



**TƏRƏZİ** - Ulduzların düzümü daha çox qarşılıqlı münasibətlər zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu yönümdə sevgi amilini daha çox qabardın. Axşamsa ehtiyatlı olun.



**ƏQRƏB** - Saat 15-ə qədər bütün vacib işlərinizi yekunlaşdırın. Çünki göstərilən müddətdə iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Sonrakı saatlarda neytrallıq nümayiş etdirin.



**OXATAN** - Fəaliyyətlə bağlı uğurlarınız birə-beş qat arta bilər. Bunun üçün həmkarlarınızla əlaqələri dərinləşdirməli, yeni iş təkliflərinə başdansovdu yanaşmamalısınız. Risk etməkdən qorxmayın.



**OĞLAQ** - Gün boyu mənfi yüklü Ay bürcünüzdə olsa da, nəzərdə tutduğunuz planlar müsbət həllinə yaxınlaşacaq. Dedi-qodudan uzaq olun. Məişət problemlərini deyil, mənəvi duyğularınızı qabardın.



**SUTÖKƏN** - Yeni əlaqələr qurmaq, nəzərdə tutulan planların icrası üçün sövdələşmələrdə iştirak etmək baxımından çox səmərəli gündür. Səhhətinizlə bağlı problemləriniz isə tədricən qaydasına düşəcək.



**BALIQLAR** - Qarşınızda duran gündə Göy qübbəsi daha çox neytrallıq nümayiş etdirməyinizi tələb edir. Ciddi sövdələşmələri, riskli məsələləri (ələlxüsus pulla bağlı) təxirə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İngilis kişilər evliliyə qadınlardan daha ciddi yanaşır



İngiltərədə bir evlilik vəqfi tərəfindən maraqlı araşdırma hazırlanıb. Məlum olub ki, son illər həyat yoldaşından ayrılmaq üçün məhkəməyə müraciət edən qadınların sayında son illərlə müqayisədə 27 faiz azalma müşahidə edilib. Araşdırmaçılar hesab edir ki, bu, təsadüf sayılmaz. Bunun səbəbi isə kişilərin müsbətə doğru dəyişməsidir: "Kişilər artıq evliliyə daha ciddi yanaşır. Onlar həyat yoldaşlarına, ev işlərinə və uşaqların qayğısına daha ciddi yanaşır. Bu isə müsbət gəlişmədir".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750

Yeni MÜSAVAT
N 269 (6590) 3 dekabr 2016



# Yumulu, soyuq gözlərlə

Zamin HACI
zaminhaci@mail.ru

(rəhmətlik Stenli Kubrikə ithaf edirəm)

**Sentyabrda konstitusiyaya dəyişikliklər referenduma çıxarılanda bəzi maddələr zəhmətkeşlərimizin təəccübünə səbəb olmuşdu. Misal üçün, orda parlamenti buraxmaq üçün prezidentə əlavə səlahiyyətlər verilirdi. Doğrudan da ilk baxışdan heyrətamiz dəyişiklik idi. Bir qurumu öz siyahın əsasında formalaşdırırsansa, onu buraxmağa nə ehtiyac? Elə alınırdı ki, dövlət rəhbəri hətta özünün təyin etdiyi deputatlara da etibarsız yanaşır.**

Son günlər Tarif Şurasının bir çox qiymətləri artırmaq qərarı çıxanda dövlət rəhbərinin əslində çox uzaqgörən qərar verdiyi bilindi: deputatxanada bəzi deputatlar qiymət artımının əleyhinə çıxışlar yapırlar! Biri deyir, qiymətlərə təzədən baxmaq lazımdır, o biri deyir, kasıblar üçün çətin olacaq, üçüncüsü düzəlişlərə, dördüncüsü kompensasiyalara çağırır.

Dəhşətdir. Özü də bu çağırışları edənlər oyuncaq müxalifətçilər də deyil, zatən belələri artıq deputatxanadan tamamilə siliniblər. Min ilin yapistləri dilə gəliblər, hökuməti tənqid edirlər. Şəxsən mən dünən Arif Rəhimzadə və Fəzail Ağamalının tənqidlərini oxuyanda gözüm kəlləmə çıxdı, hələ yerinə qayıtmayıb. İndi bunları buraxmayıb nə edəsən? Cəlal əmi də sağ deyil üstlərinə qışqırsın ki, almısınız mandatı, ölün öldüyünüz yerdə... Hər şey cəhənnəmə, adam birtəhər yaratdığımız sabitliyin əldən çıxmasına qorxur. Deputat Adil Əliyev demişkən, qarın davası aparmaq olmaz, biz gərək vətənin taleyini düşünək, şükür edək ölkəmiz işğal altında deyildir. Hərçənd, əlaqəsi olanlar Adil müəllimə Azərbaycanın xəritəsində Qərb regionun göstərsinlər, o tərəfdə nəsə yüngülvari dilxorçuluqdur, intervü verəndə nəzərə alsın.

Sözgəlişi, həmin referendumda vitse-prezidentlərin qoyulması nəzərdə tutulurdu, ancaq 3 aydır bu istiqamətdə də səs gəlmir. Görünür vitse-prezident qoymağa da etibarlı adamlar tapılmır. Avtoritarizmin buynuzu olmaz ki? Təzə, yağlı vəzifələr düzəldirsən, ancaq hamı qorxub, yaxın gəlmir. Bilmirəm, gözü çıxan qardaşlar çoxalıb, ona görədir, ya doğrudan kadr qıtlığıdır.

Bu arada Gürcüstandan Ermənistana keçən rus qaz kəmərinin idarəçiliyinin özəlləşdirilməsi xəbəri yayıldı. Ermənilər qorxuya düşüblər ki, birdən bunu bizim SOCAR ələ keçirdər. Doğrudan da SOCAR-ın Gürcüstan enerji sektorunda xeyli yatırımları vardır. İndi qaz kəmərini ələ alsaq Ermənistanda da qazın qiymətini qaldırardıq, ləzzətli olardı. Yoxsa harda görünüb, Qafqazda qaz bircə bizdədir, bizdə bahalaşır, Ermənistanda isə rusların güzəşti hesabına ucuzlaşır? Mən SOCAR-ın o kəməri ələ keçirməsi naminə bütün qışı qazsız qalmağa hazıram. Əsas vətənpərvərlikdir, bəs necə? Ac ol, kişi ol. Adından göründüyü kimi, QafQAZ (fərqləndirmə mənimdir - Z.H.) regionunda hamı qaz olmalıdır.

Qaz demişkən, bir həftəyə yaxındır Binəqədinin, Biləcərinin, Yasamalın və başqa paytaxt ərazilərinin sakinləri "Azəristilik"dən normal istilik ala bilmirlər. Hətta vay-fay qurğusundan gələn temperatur istilik "qarmon"larındakından çoxdur. Səbəb isə odur ki, "Azəriqaz" "Azəristilik" üçün normal təzyiqdə qaz vermir. Bir neçə qazanxananı gəzib şəxsən baxmışam, hamısında qazın təzyiqi 0 dərəcəni göstərir. İşçilər deyir ki, binalara babat istilik vermək üçün gərək qazın təzyiqi 300 millibar olaydı. İndi bütün zəhmətkeşlərimizlə birgə yorğana bürünüb "qarmonlardan" gələn uğultu, şırıltı səslərini dinləyir, "Azəriqaz" rəhbərliyinin o biri dünyada yaxşı bir qazanda qaynadılmasını arzu edirik. Sözgəlişi, bu qaz idarəsinin bir mətbuat katibi var, qardaşın internetdəki bütün fotolarında gözü yumulu, ağzı açıqdır. Sanki gözünü yumub, ağzını açıb, vətəndaşları danlayır.

Təzyiqə çarə yoxdur, cəhənnəmə, heç olmazsa təzə şəkil qoy. Gözü açıq olmalıyıq. Bizim Qarabağ dərdimiz var.



# "Məğlub olsaydım da ...ana müxalifətin ən güclü liderinə məğlub olacaqdım" - Adil Əliyev

## **Millət vəkili Adil Əliyev:** "Böyük vəzifə sahibi olan insanlarda təvazökarlıq hissi çox aşağı səviyyədədir"; "Mən işığı, inkişafı, gələcəyi inancda görürəm"

**Son illər mətbuatda onunla bağlı xəbərlərin sayında ciddi artım var. Millət vəkili seçildiyi ilk dönəmdən fərqli olaraq, artıq PR-ın faydalılığına inandığı hiss olunur və bu, mətbuat səhifələrində də özünü göstərir. Bu baxımdan, millət vəkili, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyevi mətbuata qapalı biri hesab etmək olmaz.**

*"Yeni Müsavat"a qonaq gəlib, "Bizim qonaq" rubrikasında zaman-zaman iynəli suallarımıza cavab verməklə də o, media ilə münasibətlərdə dözümlü olduğunu göstərdi.*

*"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, baş redaktorun birinci müavini Azər Ayxan, baş direktorumuz Ələsgər Süleymanov və əməkdaşımız Sevinc Telmanqızının iştirakı ilə baş tutan iki saatlıq debatda da oxucuları maraqlandıracağını düşündüyümüz bütün mövzulardan danışdıq. Bahalaşmadan başlayıb, MTN olaylarında bitirdik söhbəti...*

***(Əvvəli ötən sayımızda)***

*S.Telmanqızı:*

***- Bu məqamda qardaşınızdan, ölkənin tanınmış adamlarından biri olan general Məhərrəm Əliyevdən məsləhət aldınızmı? Kifayət qədər ciddi və riskli qərar idi çünki...***

- Təbii. Həyatımla bağlı önəmli məsələlərdə qardaşlarımdan məsləhət almışam. Qardaşlarım mənim üçün çox önəmli məktəb olub, işıq olub ki, onlardan öyrənmişəm, onlara baxıb həyatımı yaşamışam. Gedib kitabda, filmdə özümə qəhrəman axtarmamışam. Görmüşəm ki, qardaşım bu həyatı yaşayıb, onun həyatındakı məqamlar, çatdığı mərtəbə məni qane edirsə, nəyə görə özümə qıraqda qəhrəman axtarmalıyam? Ona görə də mən qardaşlarımı özümə örnək görmüşəm.

*S.Telmanqızı:*

***- Siz siyasətə başlayanda kifayət qədər riskli bir dairədən namizədliyinizi verdiniz. Müxalifətin lideri olan İsa Qəmbərin namizəd olduğu dairəni seçməniz birmənalı qarşılanmadı, bunun siyasi proje olması rəyi də var idi. Hətta özünüz daha sonra müsahibələrinizdə də dediniz ki, mənimçün ən ciddi rəqib İsa Qəmbər olub. Siz niyə bu dairəni seçdiniz? Daha öncə bu ərazidə yerləşən 16-cı polis bölməsində çalışdığınız üçün, ya İsa Qəmbər faktoruna görə?***

- Burda iki məqam var. Birincisi, həmin ərazidə işləməyim əsas faktor idi. Üstəlik, ölkənin idman ictimaiyyəti əsasən həmin ərazidə məskunlaşıb. İkinci məqam o idi ki, seçkidə məğlub olma ehtimalını da qəbul edirdim. Sabah "kimə məğlub olmusan" sualı çıxacaqdı ki, o sual mənim üçün çox önəmli idi. Bilirdim ki, məğlub olsam da, cavabım "ana müxalifətin ən güclü liderinə məğlub olmuşam", olacaq. Seçki dövründə isə rəqibimdən yaxşı işlədik. İsa Qəmbərin iki görüşü yadımdadır, bəlkə üçüncüsü də olub. Amma mən 102 görüş keçirdim.

*S.Telmanqızı:*

***- Seçicilərə pul paylayırdız?***

- Pulum var idi ki, paylayım da? Ancaq tək Allahım şahiddir ki, o seçkilərdə mən və komandam böyük əziyyətlər çəkdik. Hətta mən Rusiyada, birgə təhsil aldığımız dostlarıma deyirdim ki, bəlkə sənin bu dairədə yaşayan hansısa qohumun ola? Bir nəfər seçicinin səsi də yetərlidir. Seçki texnologiyasını tamam fərqli qurmuşdum. Ona görə də həmin ərəfədə əsas rəqibimin nümayəndələri seçki dairələrini qoyub qaçırdılar. Halbuki daha öncədən şərt kəsmişdik ki, kimin namizədi qalib gəlsə, kişi kimi əl verib, təbrik edəcəyik. Amma onların bəziləri hətta protokollara qol çəkmədən çıxıb gedirdilər. Mən onu da anlayırdım ki, bütün xarici müşahidəçilər kamera ilə qutuların başında idi. Orda heç bir qanun pozuntusuna əl atmadıq. Bilirdim ki, hər hansı bir neqativ hal birbaşa mənim başımda çatlaya bilər. Ona görə də ancaq qanuni yollardan istifadə edirdim.

*R.Arifoğlu:*

***- İdman sektoru ilə sıx əlaqələriniz var. Özünüz də ölkənin ciddi idmançılarındansız və dərəcəniz var. Veteranlar üzrə kikboks üzrə iki dəfə dünya çempionu olmusuz. Biri də bu il olub. Sizi idmana bağlayan nədir? Sadəcə, fiziki sağlamlıq, qalib gəlmək, kimdənsə üstün olmaq arzusu, yoxsa polis və zabit kökənli olmanız?***

- İdman mənim üçün hər şey deməkdir. Özümü idmansız görmürəm. Maraqlı budur ki, idmanda qazandığım zədələri də idmanla müalicə etdim. Belimdə üç dənə yırtıq əmələ gəlmişdi, idmanla onu müalicə etdim - üzgüçülüklə. 15 il bütün dünyanı gəzdim, mənə dedilər ki, bunun müalicəsi üzməkdədir. Amma heç kim demirdi ki, konkret necə üzmək lazımdır. Əvvəllər ağrılarım çox olurdu. Son iki-üç ildə mən özümü müalicə etdim, bel yırtığım aradan qalxıb. Bir neçə nəfərə də bu məsləhətimi vermişəm, effektini görüblər. İkincisi, idman mənim peşəmdir. Mənim təməlim idmanda qoyulub. Qardaşlarım məni uşaqlıqdan bu cür istiqamətləndiriblər. Daha sonra təhsilimi də məhz bu yöndə aldım. İndi isə əminəm ki, idmanla hər yaşda məşğul olmaq mümkündür. Bizim getdiyimiz veteranlar arası yarışda 70-75 yaşlı insanlar da rinqə çıxırlar. Bu, bir bayramdır, festivaldır, tanınmış idmançıların əyləncəsidir. Biz bunu nəyə görə etməyək? Xaricdə yaşlı insanlar idmanın mümkün olan növləri ilə məşğul olurlar. Bizdə isə insanlar yaşlanan kimi nənə-baba statusunu alıb, tərpənmirlər.

*S.Telmanqızı:*

***- Söhbətimizin əvvəlində dövlətin təhlükəsizliyindən danışdıq. Yaxın tariximizdə baş verən MTN olaylarına toxunmaq istəyərdim. Hansı ki, dövləti və cəmiyyəti ciddi şəkildə sarsıtdı. Müsahibələrinizdən birində oxumuşdum ki, "Akif Çovdarov kimi birini o cür mötəbər vəzifəyə gətirib oturtmaq, dövlətin dayaqlarını sarsıtmaq deməkdir", söyləmisiz. Sizcə, bu cür olayların baş verməsi nəyin nəticəsi idi? Yanlış kadr siyasəti, məmur özbaşınalığı, hüdudsuz səlahiyyətlər?..***

- Hər kəs etdiyi əmələ görə sorğu-sual olunacaq. Böyük vəzifə sahibi olan insanlarda təvazökarlıq hissi çox aşağı səviyyədədir. Özlərini elə aparırlar ki, sanki yeri-göyü bunlar yaradıblar. Ancaq ən böyük nemət insaniyyətdir, insanlıq zirvəsidir. O insanlar ki, dünya malı, bər-bəzəyi vicdandan üstün tutur, onlar hər yerdə əmələ gələ bilər.

*R.Arifoğlu:*

***- MTN-in əvəzinə yaradılan Dövlət Təhlükəsizlik Xidməti bizim haqqında danışdığımız o prosesin bir növ yekunudur. Sizin fikrinizcə, proses necə gedir?***

- Bu gün cənab prezidentin o vəzifələrə təyin etdiyi insanları cəmiyyət yaxşı qəbul edir. Mədət Quliyev yerində olan adamdır. Bu gün onun təyin olunması həmin sahədə xidmətlərin yaxşı mənada dəyişikliklərə gətirib çıxarmasının təminatçısıdır. O sistem indi öz vəzifəsi ilə məşğuldur. Heç bir reketlik, adam oğurluğu, quldurluq əməllərindən söhbət gedə bilməz. Son keçirilən əməliyyatlardan görünür ki, insanlar öz peşəsi, sahəsi ilə məşğuldur. Ümidvar olmalıyıq ki, daha öncə bu sahədə yaşanan neqativ hallar təkrarlanmayacaq.

*R.Arifoğlu:*

***- Sizin adınız bu yaxınlarda mətbuatda Sankt-Peterburqda MDB Parlament Assambleyasının növbəti toplantısında erməni deputatla konfliktə girməklə hallandı. Necə düşünürsüz, qeyri-cəbhə sahəsində, diplomatiya, informasiya müharibəsi sahəsində imkanlarımız nə yerdədir? Oxucular üçün deyim ki, həmin toplantıda erməni deputat aprel döyüşlərində Azərbaycan əsgərlərinin guya erməni uşaqlarının başını kəsməsi ilə bağlı yanlış rəy yaymağa çalışmışdı...***

- MDB dövlətləri Parlament Assambleyasının 45-ci sessiyasında komissiyaların da işi müzakirə olunurdu. O erməni xanımın - Naira Zöhrabyanın Azərbaycanla bağlı hər zaman aqressiv münasibətinin, bizim əleyhimizə gördüyü işlərin şahidi idim. Gündəlik təsdiqlənəndən sonra bu qadın söz alıb dedi ki, mən keçən iclasda aprel hadisələri ilə bağlı müraciət etmişdim. Dedi ki, guya həmin hadisələr zamanı 18 yaşlı erməni gənclərin başı kəsilib və sair. Təbii ki, ona bu məsələnin həmin komissiyada müzakirəsinin doğru olmadığı deyildi. Amma mən bu məqamda israrla söz alıb cavab verdim. Dedim ki, bu məsələdə haqlı tərəf bizik, torpaqlarımız işğal altındadır, qaçqın-köçkünlərimiz var. Sizin təxribatınız nəticəsində baş verən qısamüddətli müharibənin də səbəbi sizsiz. Deyirsiz ki, gənclərinizin başı kəsildi orda. Mən də soruşuram ki, sizin gənclərinizin orda nə işi vardı ki, başı kəsilsin? Hətta sizin prezidentinizin də Azərbaycan sərhədlərinin qorunması ilə bağlı açıqlaması var.

*R.Arifoğlu:*

***- Əslində isə erməni əsgərlərin başının kəsilməsi faktı olmayıb...***

- Zatən mən dedim ki, belə fakt olmayıb. Ancaq biz də haqq edirik ki, vətəndaşlarımıza dəyən ziyanın ödənilməsi müzakirə olunsun. O xanım da susdu və mövzunu davam etmədi.

*R.Arifoğlu:*

***- Azərbaycan prezidentinin Qarabağla bağlı apardığı proses, atdığı addımlar bir vətəndaş, millət vəkili olaraq sizi qane edirmi? İstər diplomatiya, istərsə hərbi sahədə apardığı xətlə bağlı fikirlərinizi bilmək maraqlıdır.***

- Bu gün hərdən biz də, vətəndaşlarımız da səbirsizlik edirik ki, tez müharibə olsun, torpaqlarımız qayıtsın. Amma bəzən anlamırıq ki, bu, bütün xristian dövlətlərinin istədiyi işğaldır. Bu işğal tək Ermənistan tərəfindən həyata keçirilməyib. Bu, bizi bir azərbaycanlı, türk kimi, neft dövləti kimi işğal olunmağımız deməkdir. Bu gün apardığımız siyasətdən artıq siyasət aparmağımız mümkün deyil. Aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq etməklə öz sabitliyimizi qoruya bilirik. Bir çox sahələrdə əldə etdiyimiz uğurlar bizə baha başa gəlib. Biz bu gün təklənmişik. Güclü düşmən qonşularımız var. Ölkə rəhbərinin ordu sistemindəki, müdafiə sənayesi sahəsindəki gördüyü işlər təqdirəlayiqdir. Bu gün bizim Müdafiə Sənayesi Nazirliyi silah, pilotsuz təyyarələr, "İstiqlal" tüfəngi istehsal edir. Biz onları xaricdən almırıq. Özümüzdə istehsal olunması uğurumuzdur. Bu gün ordumuzun güclənməsi, Azərbaycan əsgərinin daha yaxşı silahlarla təchiz olunması bizim uğurumuzdur və gələcəkdə də uğurlarımızın təminatçısıdır. Hazırda bu uğur da İlham Əliyev cənablarının apardığı uğurlu siyasətin nəticəsidir.

*R.Arifoğlu:*

***- Aprel döyüşləri bizə nə verdi? 2017-ci ilin yazında əməliyyatlar üçün münasib zamanda yeni bir hərbi toqquşma ehtimalını yaxın buraxırsızmı? Fikrinizcə, bu, lazımdırmı? Erməni ekspertləri həyəcanla bu ehtimalı vurğulayırlar. Bizim bu erməni təxribatına qarşı adekvat addımımızın olması nə dərəcədə mümkündür?***

- Əvvəla, aprel hadisələri bizə çox böyük dərs oldu. Biz bu prosesə - müharibəyə hazır olduğumuzu gördük. Bundan başqa, "Azərbaycan ordusu zəifdir" stereotipini dünyada sındırdıq. Xaricdə yaşayan ermənilər həmişə bizə məğlub ordunun təmsilçiləri kimi baxırdılar. Son hadisələr bizim güclü və qalib olduğumuzu göstərdi. Bundan sonra ermənilərin həyəcanı artdı. Heç vaxt demək olmaz ki, bu hadisə təkrarlanmayacaq. Azərbaycan ordusu yerindədir, onun nəyə qadir olduğunun şahidi olduq, müdafiə naziri Zakir Həsənovun gördüyü işlər yüksək səviyyədədir. İnanıram ki, daha güclü ordu yaratmaq üçün bu hərbi nazirliklər bundan sonra da böyük işlər görmək qabiliyyətinə malikdir. Təxribat hər zaman ola bilər. Ermənilər Azərbaycan beynəlxalq aləmdə uğur qazanandan sonra bu təxribatları edirlər. Amma bunun da cavabını layiqli formada alırlar.

*R.Arifoğlu:*

***- Qarşıdakı aylarda növbəti hərbi əməliyyatı mümkün sayırsızmı?***

- Təbii, mümkün sayıram. Həmişə hazır olmalıyıq. Danışıqlar həmişə normal nəticə vermir. Minsk Qrupu üzvləri, ümumən format dəyişdirilməlidir. Rusiya, Fransa, Amerika birmənalı şəkildə dəyişdirilməli və bizim istədiyimiz dövlətlər olmalıdır.

*R.Arifoğlu:*

***- Hansı dövlətlər olmalıdır?***

- Ən azı biri Türkiyə olmalıdır. Başqa Asiya dövlətlərindən də ola bilər.

*R.Arifoğlu:*

***- Digər qonşu ölkələr var - İran və Rusiya.***

- Rusiya heç vaxt bizə imkan verməyəcək. Nə Rusiya, nə də İrandan Azərbaycan ordusuna nə zamansa dəstək veriləcəyinə inanmıram.

*R.Arifoğlu:*

***- Türkiyədən gözləntiləriniz nədir?***

- Türkiyə son zamanlar böyük hadisələrlə üzləşdi. Ona baxmayaraq, umduğumuz dövlət Türkiyədir. Ən azından Türkiyə vətəndaşlarının bizim yanımızda olması bir faktdır. Bir neçə il öncə Türkiyə sərhədlərin açılması ilə bağlı addımlar atırdı. Amma Türkiyə və Azərbaycan ictimaiyyəti buna böyük təpki göstərdi ki, Qarabağ problemi həll olmadan bu mümkün deyil. Biz də Türkiyədən başqa bunu kimdən ummalıyıq ki?

*R.Arifoğlu:*

***- İnanclısız? İbadət edirsiz?***

- Bəli.

*R.Arifoğlu:*

***- Bu, sizin çevrədə necə qarşılanır? Siz elə sektordasız ki, orada cəmiyyətin ən müxtəlif kəsiminə aid insanlar toplaşıb. Bir az da Azərbaycan keçmiş Sovet dövləti olaraq ateizmin izlərini hələ də özündə saxlayır. Bu baxımdan, parlamentdə münasibətin necə olduğunu soruşdum...***

- Açığı, inanc məsələsi insanın daxilində olan məsələdir, reklam üçün etmirəm, heç kimə hesabat vermək fikrim yoxdur, bu mövzuda heç kimin də fikri mənimçün maraqlı deyil. Mən işığı, inkişafı, gələcəyi onda görürəm. Parlament mühitində də çox rahatam bu məsələ ilə bağlı. Öz fikrimin yiyəsiyəm.

*R.Arifoğlu:*

***- Övladlarınız sizin fikirlərinizi nə qədər bölüşürlər? Onlarla müzakirələr aparırsızmı? Onlar sizin ən böyük əsərlərinizdir. İnancla, milliyyətçiliklə, dinlə, türkçülüklə bağlı fikirlərinizə şərikdilərmi? Onları kim olaraq hazırlayırsız cəmiyyətə? Və sonda onu da bilmək istəyərdik ki, təhsil və iş fəaliyyətlərini ölkədə davam etdirmək istəyirlər, ya xaricdə?***

- Əvvəla, övladlarımı vətəndaş, insan olaraq böyüdürəm. Uşaqlar böyüdükcə peşə ilə bağlı münasibətləri də dəyişir. Polis idim, polis olmaq istəyirdilər. İdmançı idim, idmançı olmaq istədilər. (gülür). İlk növbədə sənət, peşə önəmlidir. Amma ondan önəmlisi odur ki, uşaq əxlaqlı olsun, vətəndaş olsun, millətinə xidmət etsin. İmkanımız da var ki, xaricdə təhsil alsın, çalışsın. Amma mən vətəndə qalmağı, burda oxuyub işləməyi üstün tuturam. Mən niyə xaricdə davam etməliyəm həyatımı? Hər hansı problem varsa, öz ölkəndə də ola bilər, xaricdə də. Problem sınaqdır. Hər yerdə insanı yaxalaya bilər. Bu sınağa ləyaqətlə sinə gərib, Allaha təvəkkül etsən, bir də gördün sınaq bildiyin mükafata çevrilir...

❑ **Söhbəti qələmə aldı: Sevinc TELMANQIZI**





## "Mənim pulum var idi ki, paylayım da?"

## "Övladlarımın vətəndə qalmasını, burda oxuyub işləməsini üstün tuturam"





## "Aprel hadisələri bizə çox böyük dərs oldu"